Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 138 (8161) ŞƏNBƏ, 29 iyun 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# Azərbaycan vətəndaşının rifahı dövlətin sosial siyasətinin qayəsini təşkil edir

Prezident İlham Əliyevin əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı son illər imzaladığı sərəncamların Azərbaycan vətəndaşının həyat səviyyəsinin və onun sosial rifahının yüksəlməsinə xidmət etməsi şəksizdir. Dövlət başçısı ötən ilin aprel ayında keçirilmiş prezident seçkilərindən sonra çox geniş islahatlar paketini həyata keçirəcəyini, ciddi sosial qərarlar qəbul edəcəyini bildirmişdi və dediyinə də tez bir zamanda əməl etdi.

Bu ilin fevralında imzaladığı sərəncamla minimum əməkhaqqını 130 manatdan 180 manata çatdıraraq yaşayış minimumu ilə eyniləşdirdi. Bu qərardan qısa müddət sonra ikinci sosial paket qəbul edildi. Beləliklə, təxminən son yarım il ərzində minimum əməkhaqqı 130 manatdan 250 manata qaldırıldı.

İyunun 18-də imzalanan sərəncamlar sayəsində sosialyönümlü islahatların daha da dərinləşməsi və geniş təbəqələri əhatə etməsi Prezidentin islahatçı lider kursuna sadiq qalmasını təsdiq edir. Diqqəti çəkən odur ki, bu addımlar kampaniya xarakterli deyil, cari tədbirlərə bənzəmir. Cənab İlham Əliyev ölkə vətəndaşlarının sosial müdafiəsini dövlət səviyyəsində gücləndirir, eyni zamanda özəl sahənin təmsilçilərini, biznes qurumlarının rəhbərlərini də dövlətin sosial siyasətinin reallaşmasında yaxından iştirak etməyə sövq edir.

Dövlət başçısının imzaladığı sonuncu sərəncamları ilə hüquq mühafizə orqanlarının əməkdaşları, hərbçilərlə birlikdə təhsil sahəsində işləyənlərin də əməkhaqları artırılıb. Bu o deməkdir ki, dövlət ölkənin müdafiə qüdrətini düşündüyü qədər təhsildə çalışanların da qayğısına qalır. Çünki müəllimin həyat səviyyəsinin yaxşılaşdırılması, onun sosial müdafiəsinin gücləndirilməsi bütünlükdə cəmiyyətin inkişafına verilən ən güclü dəstəkdir.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl xarakter daşıyır. Prezident İlham Əliyev respublikamızda sosial vəziyyəti dünyanın inkişaf etmiş ölkələrindəki səviyyəyə çatdırmağı mühüm vəzifə kimi qarşıya qoyub. Bu strateji kursa uyğun olaraq ölkəmizin uğurlu sosial dövlət modeli formalaşdırılıb. BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan Azərbaycan qısa müddətdə insan inkişafı indeksini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb və MDB məkanında lider mövqeyə yüksəlib.

Azərbaycan Prezidentinin məhz xalqın mənafeyindən irəli gələn siyasət həyata keçirməsi qarşıya qoyulan yeni hədəflərə sürətlə nail olmağa imkan verir. Ölkə əhalisinin sosial rifahının daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlar cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaradır, insanları eyni amal, eyni məqsədlər uğrunda birləşdirir. Çünki əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl xarakter daşıyır.

*Ardı 5-ci səh.*

## Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yazıçılar Birliyinin Şüvəlandakı Səməd Vurğun adına Yaradıcılıq Evinin rekonstruksiyası və təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2019-cu il*

## Biləsuvar rayonunun Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On iki min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon (beş milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2019-cu il*

## Xəzərdəki "Qarabağ" strukturunda hasilat platforması quraşdırılacaq



Bu yaxınlarda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR və Norveçin "Equinor" (keçmiş "Statoyl") şirkətləri cari əməkdaşlıq məsələlərini, xüsusilə "Qarabağ" yatağının işlənməsi istiqamətində aparılan hazırlıq işlərini bir daha müzakirə ediblər.

"Equinor"un nümayəndələri "Qarabağ" layihəsi üzrə aparılan işlərdə SOCAR-ın CDC (Caspian Drilling Company) şirkətinin iştirakını yüksək qiymətləndiriblər. CDC-nin səriştəlilik, təhlükəsizlik və əməyin mühafizəsi sahəsində tətbiq etdiyi standartlar təqdir olunub. SOCAR və "Equinor" arasında əməyin mühafizəsinin daha da gücləndirilməsi istiqamətində təcrübə mübadiləsinin genişləndirilməsi barədə razılıq əldə edilib. Qeyd olunub ki, gələn ay "Qarabağ" yatağında qazma işləri aparacaq qurğu və yeni platforma nəzarətdən keçiriləcək. Son tənzimləmələr tamamlandıqdan sonra platformanın dənizdə quraşdırılmasına başlanacaq. Bu istiqamətdə görülən işlərin operativ və qrafikə uyğun şəkildə aparılmasının əhəmiyyəti vurğulanıb.

*Ardı 4-cü səh.*

## Heydər Əliyev Fondu - 15

# «Övladımı yenidən bu həyata Mehriban xanım qaytardı»

## Minlərlə ana xəstə uşağının sağalmasına dəstək olan Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq edir

Bu elə xoşbəxt və təsirli an idi ki...
Dil susmuş, duyğular dilə gəlmişdi...
Gözlərindən sevinc göz yaşları sel kimi axan bir ana ona tərəf addımlayan, bəzən yıxılan, amma yenidən durub davam edən 3-4 yaşlı övladının qarşısında diz çökərək qollarını açmışdı...
İllər idi ki o, övladının ilk addım atacağı anı xəyalında canlandırırdı...
Elə indi də gözlərinə inanmır, bu yaşananların da xəyal, yuxu olduğundan qorxurdu...
Ana və övladının qucaqlaşma anı isə hər kəsi duyğulandırmış, kövrəltmiş, qəhərləndirmişdi...

Bu təsirli mənzərəyə Uşaq Psixonevroloji Mərkəzində şahidlik edirdik...

Mərkəzdə çalışan bütün tibbi heyət də zəhmətlərinin bəhrəsini görməkdən olduqca qürurlu, sevincli idilər...

"Övladım uşaq serebral iflicidir və biz bunu 8 aylığında bildik. Onu sağaltmaq üçün dünyanın bir çox ölkəsində müalicələrə baş vurmuşuq, amma nəticə olmayıb. Sonda isə ötən ilin noyabrında bu mərkəzə üz tutduq. İbrahim bura gələndə yerimirdi, yıxılırdı, yerindən qalxa bilmirdi. Bu müddət ərzində onda çox irəliləyişlər olduğunu gördüm. İndi isə o, artıq yeriyir. Bu bir möcüzədir... Bu mərkəzi yaratdığına, bu, cür uşaqlara dəstək olduğuna, bizim kimi minlərlə valideyni övladı ilə sevindirdiyinə görə Mehriban xanım Əliyevaya çox təşəkkür edirəm! O məni və övladımı yenidən bu həyata bağladı, bizə ikinci can bağışladı, necə minnətdar olacağımı, nə deyəcəyimi bilmirəm..." - deyə Günay adlı valideyn sevinc təəssüratlarını bölüşür.

### Heydər Əliyev Fondunun dəstəyi

Uşaq Psixonevroloji Mərkəzi Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən inşa edilib və 2009-cu ildə müəssisənin açılışında Prezident İlham Əliyev və Mehriban Əliyeva da iştirak ediblər.



Beşmərtəbəli bu tibb ocağında psixoloq, aromaterapiya, okulist, psixonevroloq, nevropatoloq, loqoped, pediatr, lor, ultrasəs müayinəsi, fizioterapiya otaqları fəaliyyət göstərir.

*Ardı 4-cü səh.*

## MINSK 2019 — II Avropa Oyunları

# Bir gündə 4 medal

## Qadın güləşçilərimiz uğur estafetini davam etdiriblər



Belarusun paytaxtı Minskdə təşkil olunan II Avropa Oyunlarında 8-ci gün arxada qaldı. Bütün idman növlərində bir-birindən maraqlı mübarizələrin şahidi olduq. Sözsüz ki, bu günlərdə daha çox diqqət mərkəzində olan idman növü güləşdir. Güləşçilərimiz son 4 gündə qazandıqları medallarla dünya idman ictimaiyyətinin diqqətini özlərinə cəlb edə bilmişdilər. Sərbəst güləşdə idmançılarımız 5 (2 qızıl, 1 gümüş, 2 bürünc) medal əldə edərək möhtəşəm zəfərə imza atmışdılar. Bu, hələ son deyil. Çünki dünən "Minsk-2019"da qadın güləşçilərimiz də ölkəmizin aktivinə daha 3 medal (1 qızıl, 1 gümüş, 1 bürünc) yazdırdılar. Qadın güləşində 50 kq, 57 kq, 62 kq və 76 kq çəki dərəcələrində həlledici mərhələnin görüşləri keçirilib.

### 3-cü qızıl medal

İyunun 27-də 50 kq çəkidə mübarizə aparan komandamızın lideri Mariya Stadnik yarışa 1/4 final mərhələsindən başlayıb. Polşalı Anna Lukasiakla güləşən təmsilçimiz 10:0 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəlib. Finala gedən yolda Evin Dəmirhana (Türkiyə) qalib gələn Mariya dünən həlledici görüşə çıxıb.

Bu da final. Qızıl medalın taleyi həll olunur. Mariyanın rəqibi ukraynalı Oksana Livaçdır. Təmsilçimiz çempionluq məsələsini elə ilk dəqiqələrdən həll edir. 7:1 hesabı ilə qalib gələn Mariya qızıl medala yiyələnməklə dörd il əvvəl Bakıda keçirilən ilk Avropa Oyunlarında qazandığı nailiyyəti təkrarlayır. Bu qələbənin səbəbkarını alqışlayırıq! Dövlətimizin himni səslənir!

Final qarşılaşmasından sonra Mariya Stadnik deyir ki, ukraynalı güləşçi ilə rəfiqə olduğundan final görüşü psixoloji baxımdan onun üçün çətin idi: "Bir-birimizi yaxşı tanıyırıq, məşqləri birgə edirik. Daha təcrübəli olmağım finalda qalib gəlməyimə kömək etdi".

*Ardı 8-ci səh.*

## “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 258; 2004, № 3, maddə 133; 2005, № 10, maddə 871; 2009, № 2, maddə 46; 2010, № 3, maddə 178; 2014, № 4, maddə 329; 2016, № 6, maddə 1003; 2017, № 7, maddələr 1282, 1292; 2018, № 3, maddə 371) 1-ci maddəsinin on birinci abzasında “219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi” sözləri “219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361; 2015, № 11, maddə 1294; 2016, № 3, maddə 413; 2017, № 5, maddələr 696, 711, № 7, maddə 1295, № 11, maddə 1959; 2018, № 7 (I kitab), maddə 1407, № 10, maddə 1973, № 11, maddə 2233; 2019, № 1, maddə 24) 6.5-ci maddəsində “4.0.9-cu” sözləri “4.1.9-cu” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

## “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1599-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1599-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 26 dekabr tarixli 621 nömrəli, “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2006-cı il 18 aprel tarixli 391 nömrəli, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən istifadə qaydası haqqında” 2015-ci il 21 dekabr tarixli 712 nömrəli, “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 1 may tarixli 1358 nömrəli fərmanlarında və “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 6, maddələr 1231, 1239, № 7 (I kitab), maddə 1489, № 12, maddə 2552; 2019, № 1, maddə 95) 2.1-1-ci və 2.1-2-ci bəndlərində “kontorlarının” sözü “ofislərinin” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323, № 12, maddə 1034; 2007, № 11, maddə 1105, № 12, maddə 1246; 2009, № 7, maddə 533, № 8, maddə 627, № 10, maddə 773, № 12, maddələr 983, 988; 2010, № 2, maddə 83, № 4, maddə 292, № 11, maddə 966; 2011, № 1, maddə 18, № 2, maddə 85, № 4, maddə 281, № 6, maddə 497, № 10, maddə 894, № 11, maddə 993; 2012, № 10, maddə 950; 2014, № 6, maddə 627, № 7, maddə 820, № 9, maddə 1029; 2016, № 1, maddə 77; 2017, № 2, maddə 184, № 10, maddə 1784; 2018, № 6, maddə 1205, № 7 (I kitab), maddə 1480; 2019, № 3, maddə 431; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 may tarixli 708 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 10.5-ci bəndində “onun ləğv edilməsi barədə qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək və ya onu qanunvericiliklə müəyyən edilmiş hallarda ləğv etmək” sözləri “qanunla müəyyən edilmiş hallarda şəhadətnaməni ləğv etmək” sözləri ilə əvəz edilsin.

3. “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən istifadə qaydası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 712 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1466) 2-ci hissəsində “kontorlarının” sözü “ofislərinin” sözü ilə əvəz edilsin.

4. “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 762, № 11, maddə 2023, № 12 (I kitab), maddə 2343; 2018, № 6, maddə 1235, № 9, maddə 1842, № 12 (I kitab), maddələr 2555, 2596, 2603; 2019, № 1, maddə 95) 2.3.2-ci yarımbəndində hər iki halda “kontorlarının” sözü “ofislərinin” sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 819 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2671) ilə təsdiq edilmiş “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın “6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 6.3.3-cü yarımbəndində “kontorlarının” sözü “ofislərinin” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2019-cu il*

## “İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571; 2019, № 2, maddə 306) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulada, 3.1-ci, 3.2-ci və 3.3-cü bəndlərdə “orqanlarının” sözü “qurumlarının” sözü ilə, 3.2.2-ci yarımbənddə “orqanların” sözü “qurumların” sözü ilə əvəz edilsin.

2. 3.4-cü bənddə “istifadə etdiyi” sözləri “, habelə ictimai əhəmiyyətli infrastruktur obyektlərinin fəaliyyətində istifadə olunan” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1379-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44; Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli, 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1534-VQD, 1538-VQD, 1549-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 03 may tarixli 1577-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə “290.3,” rəqəmlərindən sonra “295.6, 295.7,” rəqəmləri əlavə edilsin.

1.2. Aşağıdakı məzmunda 295.6-cı və 295.7-ci maddələr əlavə edilsin:

“295.6. Daşıyıcılar tərəfindən Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinlərinə dair “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların biletin bronlaşdırıldığı (satıldığı) vaxtdan dərhal sonra və hər bir halda hava gəmisinə minik başlayanadək müvafiq icra hakimiyyəti orqanına verilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

295.7. Daşıyıcılar tərəfindən Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisi ekipajının hər bir üzvünün vəzifəsi və ona dair “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların hava gəmisinin yola düşməsinə ən geci 24 saat qalmış, habelə hava gəmisinin ekipajının tərkibi dəyişdikdə, həmin məlumatlar dəyişiklik edildikdən dərhal sonra, lakin hər bir halda hava gəmisi yola düşənədək müvafiq icra hakimiyyəti orqanına verilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.”.

**Maddə 2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın törədilməsinə görə məsuliyyət müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların daşıyıcılar tərəfindən verilməsi ilə bağlı müəyyən etdiyi qayda qüvvəyə mindikdən sonra yaranır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2019-cu il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 13 iyun tarixli 1609-VQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirir.

4. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 aprel tarixli 602 nömrəli, 15 aprel tarixli 630 nömrəli, 3 may tarixli 673 nömrəli, 16 may tarixli 694 nömrəli və 17 may tarixli 700 nömrəli fərmanları) 4.10-cu bəndində “88.1.2-ci maddəsində” sözləri “88.1.2-ci, 295.6-cı və 295.7-ci maddələrində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2019-cu il*

## “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci bəndini rəhbər tutaraq, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1174-VKQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 513; 2006, № 2, maddə 64; 2007, № 6, maddə 560) 4.2-ci maddəsində “rəsmi qaydada” sözləri “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

## “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1600-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1600-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# “Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi” layihəsinin təqdimatı olub

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib

İyunun 28-də “Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi” layihəsinin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.








Qeyd edildi ki, layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, BMT-nin İnkişaf Proqramının həyata keçirdiyi “Vətəndaş cəmiyyətinin iştirakı və inklüziv təhsilin tətbiqi vasitəsilə Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi” Proqramı çərçivəsində reallaşdırılır. Layihənin icrasında əsas tərəfdaşlar “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi və Təhsil Nazirliyidir. Layihə çərçivəsində İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi, habelə Bakı şəhərindəki ümumtəhsil məktəbləri və xüsusi məktəblər ilə əməkdaşlıq həyata keçiriləcək. Layihənin əsas məqsədi İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin inklüziv təhsil komponenti kimi sağlamlıq imkanları məhdud şəxslər üçün əlçatan edilməsi və əmək bazarının tələblərinə uyğun Peşə Təlimi Mərkəzinin yaradılmasıdır.

Diqqətə çatdırıldı ki, bu layihəyə cəlb olunan müəllim və sənətkarlar sağlamlığı məhdud gəncləri digər gənclərlə birlikdə öyrətmək üçün zəruri bilik və bacarıqlarla təmin ediləcəklər. Onların inklüziv təhsil prinsipləri barədə məlumatlılığı yerli və beynəlxalq təlimlər vasitəsilə artırılacaq. Layihə inklüziv peşə təhsili modelinin təşviqinə və ölkədə sağlamlıq imkanları məhdud şəxslər üçün bərabər şəraitin təmin edilməsinə töhfə verəcək. Sağlamlıq imkanları məhdud gənclərin ənənəvi incəsənət sahəsində əmək bazarının tələblərinə uyğunluğu artırılacaq. Proqram başa çatandan sonra layihənin nəticələrindən müvafiq tövsiyələrin hazırlanmasında istifadə olunacaq.

Bildirildi ki, layihənin əsas hədəf qrupları xüsusi məktəblərdə formal təhsil almış, inklüziv incəsənət və sənətkarlıq üzrə peşə təhsili proqramında iştirak etməkdə maraqlı olan sağlamlıq imkanları məhdud gənclər, təhsil prosesində iştirak edən təlimçilər, xüsusi təhsil verənlər, İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin işçi heyəti və seçilmiş pilot məktəblərdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva layihəyə cəlb olunan sağlamlıq imkanları məhdud gənclərlə söhbət etdi, onlarla şəkil çəkdirdi.

# Azərbaycanda ilk dəfə inklüzivlik hakatonu təşkil edilib







Azərbaycanda ilk dəfə inklüzivlik hakatonu təşkil edilib. AZƏRTAC xəbər verir ki, iyunun 28-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının təşkil etdiyi mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.





İnklüzivlik hakatonu ideya və açıq mənbədən olan həll yollarını təklif edə biləcək insanların bir araya gətirilməsi deməkdir. Həll yolları dedikdə tətbiqi proqramlar, veb-saytlar, elektron məhsullar kimi müxtəlif innovativ xidmətlər nəzərdə tutulur.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti bu yarışmanın dünyanın 60 ölkəsində keçirildiyini, Azərbaycanda isə ilk dəfə təşkil olunduğunu qeyd etdi. O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın inklüziv ideyaların ilk carçısı olduğunu və onun daim bu cür layihələrə dəstək göstərdiyini dedi. “İnklüzivliyi bizi birləşdirən amil kimi görək”, - deyən Alessandro Frakassetti texnologiyalara dövrümüzün həll variantı kimi yanaşmağı tövsiyə etdi və müsabiqəni “inklüzivliyin çempionatı” adlandırdı.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva yarışmanın başlamasını bildirən rəmzi düyməni basdı və müsabiqəyə start verildi. On altı komandadan ibarət hakaton iştirakçıları fasiləsiz olaraq 48 saat ərzində öz ideyalarını praktiki prototiplərə çevirmək üçün təlimatçılar qrupu ilə işləyəcəklər. Təlimatçılar iştirakçı qruplara dəstək göstərəcək və ən yaxşı mümkün həll yollarının işlənib hazırlanmasına kömək edəcəklər. Həyəcanlı təlim modulları və gərgin iş dolu üçgünlük intensiv proqramın sonunda innovasiya, inklüzivlik və texnologiya sahələrində səriştəsi olan milli və beynəlxalq ekspertlərdən ibarət münsiflər heyəti ayrı-ayrı qrupların hazırladıqları modelləri nəzərdən keçirəcək və hansı ideyanın qalib gəldiyinə dair yekun rəy bildirəcəklər. Qalib gələn ideya 5 min manat məbləğində mükafat alacaq və üç ay müddətində ideyanın tətbiqi tamamlanacaq.

# “ASAN Akademiya 2019” layihəsi başa çatıb

“ASAN Könüllüləri” Təşkilatının təşəbbüsü və “Gilan Holdinq”in maliyyə dəstəyi ilə həyata keçirilən “ASAN Akademiya 2019” layihəsinin iyunun 28-də bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində karyera sərgisi təşkil olunub. Sərgidə iştirakçılar üçün 10-a yaxın şirkət tərəfindən müxtəlif vakansiyalar təqdim edilib.

“ASAN Könüllüləri” Təşkilatının sədri Səbinə Cabbarova bildirib ki, “ASAN Akademiya” layihəsini həyata keçirməkdə əsas məqsəd müxtəlif ixtisaslar üzrə təhsil alan gəncləri bir araya gətirərək onların karyera və təhsillərində irəliləmələrinə şərait yaratmaqdır: “Beş il müddətində bu layihəyə 4000-dən çox gənc müraciət edib. Onlardan yalnız 250 gənc iştirakçı adına layiq görülüb. Bu il layihə çərçivəsində 6 proqram modulu təqdim olunub. Ümumilikdə gənclər üçün 20 təlimçi tərəfindən 30-a yaxın təlim tədris edilib. Akademiya məzunlarının 90 faizi müxtəlif dövlət və özəl müəssisələrdə işlə təmin olunublar və təhsillərini çox yüksək pillələrdə davam etdirirlər. Layihənin növbəti illərdə də davam etməsi nəzərdə tutulub”.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, “ASAN Akademiya 2019” layihəsi müddətində iştirakçılar üçün peşəkar mütəxəssislər tərəfindən liderlik, psixologiya, ictimai idarəetmə, innovasiya, maliyyə, hüquq modulları üzrə xüsusi proqram tədris olunub. İştirakçıların təcrübi biliklərə yiyələnməsi, proqramın real tətbiqi məqsədilə tədris prosesindən əlavə müxtəlif xüsusi məkanlara ekskursiyalar təşkil edilib. Layihənin məqsədi müxtəlif ixtisaslar üzrə təhsil alan, fərdi inkişafa dəyər kimi baxan gəncləri bir araya toplamaq olub: “Son 6-7 il ərzində “ASAN xidmət” mərkəzlərində 20 minə yaxın gənc könüllü kimi fəaliyyət göstərib. “ASAN xidmət”in əhatə dairəsi genişləndikcə könüllülük hərəkatı da genişlənməyə başlayıb. Altı il əvvəl könüllülərimizi birləşdirən “ASAN Könüllüləri” təşkilatını formalaşdırdıq. Bugünə qədər təşkilat tərəfindən icra olunan 500-dən çox layihədə 60 minə yaxın gənc iştirak edib. Könüllülərimizin əksəriyyəti tələbələrdir. Bu illər ərzində biz də çalışmışıq ki, öz səlahiyyətlərimiz çərçivəsində gənclərin öz ideyalarını, layihələrini həyata keçirmələrinə dəstək olaq. “ASAN Akademiya”da bugünə qədər 250-yə yaxın gənc iştirak edib. Sevindirici haldır ki, onların əksəriyyəti müxtəlif sahələr üzrə işlə təmin olunub. Bu gün növbəti 50 könüllü gəncin “ASAN Akademiya”da təlimləri başa çatıb”.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, “Gilan Holdinq”in İnsan Resursları Departamentinin direktoru Allahverdi Bağırov çıxış edərək ölkəmizdə həyata keçirilən gənclər siyasətindən, layihənin gənclərin həyatındakı rolundan danışıblar.

Tədbirdə həmçinin “ASAN Könüllüləri” Təşkilatının “Mədəniyyət carçısı” proqramı tərəfindən konsert proqramı təşkil olunub, “ASAN Akademiya”ya dair videoçarx nümayiş etdirilib.

Bağlanış mərasimində mükafatlandırma mərasimi keçirilib.

Həmçinin bu gün “ASAN Akademiya” layihəsinin 5 illiyi münasibətilə iştirakçılar üçün məzun gecəsi də təşkil olunacaq.

# Bakının Baş planının hazırlanması üzrə qurumlararası İşçi Qrupunun ilk iclası keçirilib

Bakı şəhərinin Baş planının hazırlanması prosesinin əlaqələndirilməsi məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən formalaşdırılmış qurumlararası İşçi Qrupunun ilk iclası keçirilib.

Komitədən AZƏRTAC-a bildirilib ki, İşçi Qrupunun ilk iclasına Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev rəhbərlik edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri S.Nuriyev bildirib ki, Bakının Baş planının aparıcı beynəlxalq təcrübəyə uyğun olaraq iki mərhələdə hazırlanması prosesi sürətlə davam etdirilir. Birinci mərhələdə beynəlxalq strateji məsləhətçi “BCG” şirkətinin dəstəyi ilə komitə tərəfindən hazırlanmış Bakının İnkişaf Konsepsiyası və şəhərin müəyyən edilmiş inkişaf prioritetləri hazırda reallaşdırılan 2-ci mərhələdə görülən işlərin əsasını təşkil edir. Bakının Baş planının hazırlanması işi keçirilmiş açıq beynəlxalq tenderin qalibi Almaniyada yerləşən “AS+P” nüfuzlu beynəlxalq şəhərsalma və memarlıq şirkətinə, habelə şikətin yerli tərəfdaş qismində əməkdaşlığa cəlb etdiyi “BakıDövlətLayihə” İnstitutuna həvalə edilib.

S.Nuriyev qeyd edib ki, dünya təcrübəsinə əsasən, Bakı kimi iri şəhərlərin Baş planlarının işlənməsinə 3-4 il vaxt ayrılsa da, Bakının Baş planının hazırlanması işinin 2020-ci ilin sonunadək yekunlaşdırılması planlaşdırılır.

Sədr vurğulayıb ki, bu məsuliyyətli və şərəfli vəzifəni müəyyən olunmuş müddətdə və müvafiq keyfiyyət standartlarına uyğun olaraq yerinə yetirmək məqsədilə aidiyyəti dövlət qurumlarının formalaşmış İşçi Qrupu formatında səmərəli əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir: “Baş planın hazırlanması işinin uğurunda İşçi Qrupunun səmərəli fəaliyyətinin, o cümlədən müvafiq məlumatların işlənməsində dəqiqliyin və çevikliyin böyük payı olacaq. Bununla yanaşı, İşçi Qrupunda təmsil olunan bütün qurumları Baş plana daxil ediləcək strateji layihələrlə bağlı təkliflər irəli sürməyə dəvət edirik. Strateji layihələr Bakının müəyyən olunmuş 4 əsas inkişaf prioritetləri çərçivəsində hazırlanaraq Baş planın reallaşdırılmasında təkanverici qüvvə rolunu oynayacaq, şəhərin qısa və uzunmüddətli perspektivdə davamlı və sistemli inkişafına xidmət edəcək.”

Daha sonra “BCG” məsləhətçi şirkətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəsmiləri İşçi Qrupunun iş prinsipləri, növbəti müddət ərzində fəaliyyətinin plan-qrafiki, strateji layihələrə dair təkliflərin hazırlanması formatı, habelə Bakının 4 əsas inkişaf prioritetləri barədə ətraflı təqdimatlarla çıxış ediblər.

Qeyd olunub ki, sözügedən inkişaf prioritetlərinə davamlı inkişafın təmin olunması məqsədilə şəhərin tarazlı zonalaşdırılması və ənənəvi mərkəzi ilə yanaşı alternativ mərkəzlərin və alt-mərkəzlərin formalaşdırılması, şəhər və ətraf mühitinin regenerasiyası, ərazilərdən səmərəli istifadə və əhalinin rahat yaşayışının təmin edilməsi, milli-mədəni irsin və şəhərin memarlıq görkəminin qorunması, şəhərin mədəni həyatının zənginləşdirilməsi, şəhər iqtisadiyyatının post-sənaye dövrünə mərhələli keçidi daxildir.

Çıxışların ardınca mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, iclas iştirakçılarının sualları cavablandırılıb.

Bir çox nazirliyin, dövlət komitəsinin və digər aidiyyəti qurumların rəhbərlik və ekspert səviyyəsində təmsil olunduqları İşçi Qrupunda ümumilikdə 38 təşkilatın 100-ə yaxın nümayəndəsi var.

Qeyd edək ki, İşçi Qrupunun yaradılmasında məqsəd Prezident İlham Əliyevin göstərişi əsasında komitə tərəfindən paytaxtın Baş planının hazırlanması üzrə davam etdirilən işlərin səmərəliliyinin artırılması, dövlət qurumları arasında bununla bağlı məlumat mübadiləsinin təşkili, şəhərin gələcək inkişafı üçün aparılan genişmiqyaslı planlaşdırma işlərində vahid yanaşmaya uyğun olaraq səylərin birləşdirilməsi və əlaqələndirilməsidir.

2004 Heydər Əliyev Fondu 2019







# «Övladımı yenidən bu həyata Mehriban xanım qaytardı»

## Minlərlə ana xəstə uşağının sağalmasına dəstək olan Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq edir



















*Əvvəli 1-ci səh.*

Mərkəzdə autizm, uşaq serebral iflici və formaları, əqli gerilik və ləngimələr, onun təzahürlərindən əziyyət çəkən uşaqlar müalicə olunurlar. Onların müalicəsi isə kompleks formada, yəni həkim və pedaqoji müalicə daxil olmaqla aparılır. Mərkəzdə bu sahədə dünyada tətbiq olunan ən təkmil proqramlardan, həmçinin müasir tibb və diaqnostik cihazlardan, reabilitasiya avadanlığından istifadə olunaraq, sağlamlıq imkanları məhdud uşaqlara yüksək səviyyədə tibbi və bərpa xidməti göstərilir. Bunun üçün mərkəzdə hər cür şərait yaradılıb. Uşaqların müalicəsi, təlim-tərbiyəsi ilə peşəkar tibbi, pedaqoji və texniki heyət məşğul olur.

Psixoloq Ayşən Rəfiyeva söyləyir ki, 1 ay yarımdır ki, məşğul olduğu 3 yaşlı autizm xəstəsi Məryəmdə xeyli irəliləyişlər əldə olunub: "Məryəm mərkəzimizə tamamilə göz kontaktı olmadan gəlmişdi, qavraması zəif idi, danışa bilmirdi. Artıq bir neçə söz deyir, kiçik matorikası, diqqətin mərkəzləşməsi, paylanması istiqamətində inkişaf var və davamlı olaraq qavrama üzərində iş gedir".

Tibb müəssisəsində musiqi ilə müalicə də aparılır. Bu müalicə filtrasiya olunan musiqinin xüsusi qulaqcıqlarla dinlənilməsinə əsasən beyinə impulsların ötürülməsidir. Planlaşdırılır ki, klassik musiqilərimiz - Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun əsərləri filtrasiya olunsun.

İdman zalında reabilitoloqların iş prosesini müşahidə edirik. Burada mütəxəssislər serebral iflic, dayaq hərəkət sistemində problemi olan uşaqlara xüsusi fiziki hərəkətlər etdirirlər. Reabilitoloq Elminaz Məmmədova məlumat verir ki, hazırda məşğul olduğu daun sindromlu uşağın balansını saxlamaq üçün çalışırlar: "Sol boşluğu var idi və uşaq yeridikcə yıxılırdı. Artıq bu problemi aradan qaldırmışıq və indi o, velosiped sürür, pilləkənlə çıxır, yıxılmır, ən əsası da qorxularını yenib".

Mərkəzdə xəstə uşaqlarla həm individual, həm də qrup şəklində məşğul olurlar. "Bizə elə uşaqlar gətiriblər ki, yeriyə bilməyib, amma burada müalicə aldıqdan bir müddət sonra özləri gəzə-gəzə çıxıb gediblər. Bu isə çox sevindirici haldır. Bu cür uşaqlarla işləyən zaman nəticəni görüb fərəhlənirik. Hansısa bir uşağı xilas etmiş oluruq, onların həyatda addımlamaları üçün təkan veririk" deyə həkim-fizioterapevt Leyla Abdulova qeyd edir.

### Elə il olub ki, Mehriban xanım mərkəzə 4-5 dəfə gəlib

Sözügedən mərkəzin əvvəl fəaliyyət göstərdiyi binadakı şərait uşaqların təlim-tərbiyəsi üçün uyğun olmayıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəfələrlə bu müəssisədə olması, tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanması, mövcud problemlərin həllinə dair tapşırıqlar verməsi Uşaq Psixonevroloji Mərkəzinin yeni, müasir standartlara uyğun bina ilə təmin edilməsinə şərait yaradıb.

Mərkəzin baş həkimi İradə Musayeva deyir ki, ilk dəfə 2005-ci ilin fevral ayında Mehriban xanım Əliyeva müəssisəyə baş çəkib: "O zaman bura Psixonevroloji Uşaq Evi idi. Ümumiyyətlə, həmin ildən etibarən elə il olub ki, Mehriban xanım 4-5 dəfə bura gəlib, Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı tədbirlərdə iştirak edib, onların hazırladıqları proqramlara, çıxışlara baxıb".

Baş həkim məlumat verir ki, 1993-cü ildən 2008-ci ilə qədər burada atılmış, imtina olunmuş uşaqlardan xeylisi sağaldılaraq övladlığa verilmiş, bir hissəsi də nisbən sağaldılıb əlillər evinə, xüsusi məktəblərə köçürülmüşdür. Yəni həmin uşaqlar özlərini idarə edə bilirdilər. Amma respublikada bir çox valideynli xəstə uşaq bu müalicəni kompleks ala bilmirdi. Bu zaman valideyn tibbi yardım, idman terapiyası, loqopedik, psixoloji yardım üçün fərqli yerlərə üz tutmalı olurdu: "2008-ci ildə Mehriban xanımın bu tibb ocağına növbəti gəlişində bu barədə məlumat verdik. həmin il bu məsələ ilə bağlı Mehriban xanım tapşırıq verdi və ikimərtəbəli köhnə bina sökülərək yerinə daha böyük və müasir bina tikildi. 2009-cu ildən bəri artıq biz təkcə atılmış, imtina edilmiş uşaqlarla yox, ailədən gələn problemli uşaqlarla da işləyirik".

### Leyla xanım hər zaman bu uşaqların yanında olub

2015-ci ildə isə Mehriban Əliyevanın göstərişi ilə bina yenidən rekonstruksiya olunub, həmçinin ikimərtəbəli akt zalının tikintisinə başlanılıb. Mehriban xanımın dəstəyi, diqqəti, köməyi ilə bu müəssisədə böyük işlər görülüb. İlk növbədə maddi-texniki baza yüksək səviyyədə inkişaf edib. Ötən ilin dekabrında mərkəzə Mehriban xanım və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın yardımı ilə 350 min avro dəyərində tibbi avadanlıq verilib.

İ.Musayeva xüsusilə qeyd edir ki, Mehriban xanım və Leyla xanım bu müəssisəni həddindən artıq dəstəkləyir: "Hələ tələbəlik illərindən Leyla xanım heç bir tədbir-filan olmadan qəfildən dəfələrlə bura gəlib uşaqlarla vaxt keçirir, onlarla oynayırdı. Həmçinin 2012-ci ildə Yeni il ərəfəsində Leyla Əliyeva mərkəzə gələrək burada yaşayan və müalicə olunan, xüsusi təhsilə yiyələnən uşaqların bayram üçün hazırladıqları səhnəciklərə, bir-birindən maraqlı mahnılarına, rəqslərinə tamaşa etmişdi. Leyla xanım hər zaman bu uşaqların yanında olub, həm mənəvi, həm də maddi kömək edib. Belə nəcib təşəbbüslərindən birini də ötən ilin sentyabrında gerçəkləşdirdi. Belə ki, Leyla xanımın təşəbbüsü ilə bizim mərkəzə Çindən həkimlər qrupu gəlmişdi. O zaman pulsuz aksiya keçirildi, 500-ə yaxın uşaq müayinə olundu. Bu ilin aprel ayında isə çinli reabilitoloqlar bir ay burada işlədilər".



### Mehriban xanım uşaqlarla söhbət edib, suallarını cavablandırıb, rəsm çəkib...

Birinci vitse-prezident Mehriban Əliyeva bu ilin fevral ayında yenidən Uşaq Psixonevroloji Mərkəzində olub. Mehriban xanım tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanıb, mövcud problemlərin həllinə dair tapşırıqlar verib. Birinci vitse-prezident uşaqlarla söhbət edib, doqquz yaşlı Ömərlə birgə rəsm çəkib. Mehriban xanım Əliyeva xüsusi qayğıya ehtiyacı olan 6 yaşlı Nasimin də istək və arzularını dinləyib, oyun vasitəsilə onun suallarını cavablandırıb.

Eyni zamanda, xüsusi qayğıya ehtiyacı olan balacalar Mehriban Əliyeva ilə söhbət edərək bacarıqlarını nümayiş etdiriblər. Uşaqlar Heydər Əliyev Fondunun prezidentinə sevimli oyunlarından, oxuduqları mahnılardan danışıblar. Mərkəzdə müalicə və təhsil alan uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

### Xəstə uşaqlar üçün yaradılan şərait sanki möcüzədir...

Bütün bu qayğının, dəstəyin,köməkliyin nəticəsində bu müəssisənin nailiyyətləri, göstəriciləri də az deyil. Bu barədə danışan İ.Musayeva söyləyir ki, uşaqlar 7 yaşına çatandan sonra çalışırlar ki, onların əksəriyyəti övladlığa götürülsün: "Elə də olub ki, vaxtilə xəstə övladından imtina edən valideynlər onun sağaldığını görərək evlərinə aparıblar. Həmçinin uşaqların müəyyən bir hissəsi xüsusi internat məktəblərinə gedir, hansı ki onlar bir az zəif qavrayırlar, amma özlərini idarə edə bilirlər. Həmin uşaqlara peşə öyrədilir, məsələn, xalça toxuma, dülgərlik kimi peşələrə yiyələnərək özlərini gələcək həyatda təmin edə bilirlər. Üçüncü ən ağır kateqoriyalı uşaqlar isə əlillər evinə gedir. Tam sağalmayan uşaqlarla bağlı çalışırıq ki, onlar heç olmasa özləri otura bilsin, qaşıqla yeyə bilsinlər, kimdənsə asılı olmasınlar. Heç olmasa minimum özləri üçün nə edə bilərsə, onu öyrədək".

Qeyd edək ki, hazırda müəssisədə körpəlikdən yetkinlik yaşına qədər 105 uşağa tibbi xidmət göstərilir.

### Hərf-hərf, addım-addım irəli...

Uşaq Psixonevroloji Mərkəzinin yaradılmasında əsas məqsəd problemli uşağı olan valideynin onun qayğıları ilə tək qalmaması və sonda bezib uşağından imtina etməməsi idi. Görünən isə odur ki, bu mühüm missiya Mehriban xanım Əliyevanın bilavasitə şəxsi nəzarəti ilə müvəffəqiyyətlə həyata keçirilir. Bu isə onu deməyə əsas verir ki, artıq cəmiyyətin sağlamlaşması, gələcək nəslimizin sağlam olması üçün zəmin var və bizi gələcəkdə daha az xəstə olan cəmiyyət gözləyir.

"Hər səhərim o ümidlə açılır ki, bu gün daha gözəl bir gün olacaq. Bu gün qızım daha yeni bir söz öyrənəcək. Mən onun öyrəndiyi sözlərin lüğətini beynimə həkk etmişəm ki, Nuray daha hansı yeni kəlmə öyrənib? Tək mən yox, bütün ailə onda olan bu müsbət dəyişikliyi sevinclə izləyir" - nitq ləngiməsi olan 6 yaşlı övladının mərkəzdə qazandığı uğurlardan fəxrlə danışır bir valideyn... O, "indi dünyanın xoşbəxtiyəm, bu sevinci yaşatdığına görə Mehriban xanıma minnətdaram. Mehriban xanımın xəstə uşaqlar üçün yaratdığı bu şərait sanki möcüzədir, qiymətli bir tapıntıdır..." deyir.

Demək olar ki, mərkəzdə həmsöhbət olduğumuz bütün valideynlərin dilindən Mehriban xanım Əliyevaya xoş sözlər, dualar ünvanlanmışdı...

Artıq hərf-hərf əzmlə "ana" demək istəyən, diqqətini toplayaraq anasının gözlərinə baxmağa çalışan, yıxıla-dura anasının qucağına tələsən bu körpələrlə, uşaqlarla vidalaşırıq...

Onlar da rəqs edir, mahnı oxuyur, şeir söyləyir, səhnəciklər göstərirlər. Artıq onlar da cəmiyyətin ayrılmaz bir hissəsinə çevrilib və ona öz töhfələrini verirlər...

Təsəvvür edin ki, autizmli bir uşaq səhnədə öz məharətini göstərir və bundan sevindirici daha nə ola bilər ki?!

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Xəzərdəki "Qarabağ" strukturunda hasilat platforması quraşdırılacaq

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, "Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar Risk Xidməti Sazişi" (RXS) SOCAR və "Equinor" arasında 2018-ci il mayın 30-da imzalanıb. Yataq üzrə ilkin razılaşma isə bu şirkətlər arasında hələ 2017-ci ilin dekabrında əldə olunmuşdu.

"Qarabağ" perspektivli dəniz strukturu 1959-cu ildə seysmik tədqiqat işləri nəticəsində aşkar edilib. 1984-cü ildə dəqiqləşdirilib və 1997-1998-ci illərdə kəşfiyyat qazması nəticəsində strukturun neft-qazlılığı təsdiqlənib. Bu yataq şərq istiqamətində Bakıdan 120 kilometr aralıda, açıq dənizin 150-200 metr dərinliyində yerləşir. "Qarabağ"ı "Azəri-Çıraq-Günəşli"nin yaxın qonşusu adlandırmaq olar. Çünki onları ayıran məsafə təxminən 15 kilometrdir.

Hələ keçən ilin sentyabr ayında, neftçilərin peşə bayramı ərəfəsində SOCAR-ın səlahiyyətli nümayəndəsi bildirmişdi ki, strukturda ətraflı dəyərləndirmədən sonra qiymətləndirici quyu "Dədə Qorqud" üzən qazma qurğusu vasitəsilə qazılacaq. Yataqdan ilk məhsulun 2021-ci ildə əldə olunması planlaşdırılır. Layihənin icrası üçün SOCAR və "Equinor" tərəfindən hərəsinin 50 faiz iştirak payı olmaqla birgə əməliyyat şirkəti yaradılacaq.

SOCAR və "Equinor" uzun müddətdir əməkdaşlıq edirlər. Belə ki, "Equinor" şirkəti Azərbaycanda həyata keçirilən qlobal neft-qaz və ixrac layihələrində iştirak edərək etibarlı tərəfdaş kimi tanınıb. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihələrində sanballı iştirak paylarına malikdir. AÇG-də 7,27 faiz, BTC-də isə 8,71 faiz payla iştirak edir. Razılaşdırılmış şərtlər əsasında AÇG layihəsi üzrə 2050-ci ilədək davam edəcək yeni müqavilənin imzalanması xarici şirkətlərin, o cümlədən "Equinor"un Azərbaycan iqtisadiyyatına olan inamını bir daha sübut etdi və tərəfdaşlığı yeni müstəviyə qaldırdı.

"Equinor" Azərbaycanda 25 ildən çoxdur uğurla fəaliyyət göstərir, enerji layihələri ilə yanaşı, sosial əhəmiyyətli tədbirlərdə də SOCAR-la səmərəli və məhsuldar əməkdaşlıq qurub. Bu da onu göstərir ki, "Equinor" sözügedən layihələrdə iştirak edən şirkətlərin birgə fəaliyyətində hələ uzun illər mühüm yer tutacaq.

"Equinor"un "Qarabağ" strukturunda apardığı işlər gələcək layihələrin həyata keçirilməsi üçün etibarlı zəmin yaradır və Azərbaycan iqtisadiyyatına yeni dəyər qazandıracaq. Çünki "Qarabağ" yatağında və digər perspektiv sahələrdə planlaşdırılan işlər ölkəmizdə neftçıxarmanın sabit saxlanılması, qaz hasilatının artırılması baxımından mühüm əhəmiyyətə malik layihələr kimi qiymətləndirilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Sutka ərzində təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Azərbaycan hərbçiləri Belarusda keçiriləcək hərbi paradda iştirak edəcəklər

Azərbaycan Ordusunun bayraqdarlar heyəti Belarus Respublikasının Müstəqillik Günü münasibətilə iyulun 3-də keçiriləcək hərbi paradda iştirak etmək üçün Minskdə səfərdədir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçularımız digər ölkələrin parad heyətləri ilə birlikdə hazırlıq məşqlərinə başlayıblar.

Hərbi paradda Azərbaycan Ordusunun bayraqdarlar heyəti ilə yanaşı, Belarus, Rusiya və Çinin parad heyətləri də iştirak edəcəklər.

# Akademik Ramiz Mehdiyevin yeni əsərinin Dövlət İdarəçilik Akademiyasında müzakirəsi olub

İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" adlı əsərinin müzakirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov akademik Ramiz Mehdiyevin bu əsərində də əvvəlkilərdə olduğu kimi, həm problemin kökünün və necə inkişaf etdiyinin, həm də həlli imkanlarının təqdim edildiyini bildirib. Rektor deyib: "Akademik Ramiz Mehdiyevin əsərlərinin müasir Azərbaycanın inkişafı, dünyada cərəyan edən qlobal proseslərin təhlili baxımından böyük əhəmiyyəti var. Görkəmli alimin bütün əsərləri bizim akademiya üçün xüsusi əhəmiyyət daşıyır".



Tədbirdə çıxış edən Milli Məclisin deputatı, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı diqqətə çatdırıb ki, akademik Ramiz Mehdiyevin əsərlərində dövlət müstəqilliyini bərpa etmiş ölkəmizdə cərəyan edən ictimai, siyasi proseslərə, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə, onun köklərinə, həlli perspektivlərinə fəlsəfi baxış ortaya qoyulur. Akademik yeni əsərində də, ilk növbədə, münaqişənin köklərinə nüfuz edir, ən mötəbər mənbələrə istinadla fikrini əsaslandırır. Alim bu qənaətə gəlir ki, münaqişənin mənbələrinin mahiyyətini, səbəblərini və indiki konyunkturunu anlamaq üçün onu, ilk növbədə, Rusiya imperiyasının və sovet hakimiyyətinin Cənubi Qafqazda köçürmə siyasəti kontekstində araşdırmaq lazımdır. Əsərdə, həmçinin Dağlıq Qarabağ Muxtar Vilayətinin süni şəkildə yaradılması və sovet Rusiyasının strateji məqsədləri, Azərbaycanın Türkiyəyə yaxınlaşmasının qarşısını almaqdan ötrü Dağlıq Qarabağ məsələsini ortaya atması, xaricdən gətirilən ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsi ilə yanaşı, azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası diqqətə çatdırılıb. Ən vacib məsələlərdən biri də əsərdə ötən əsrin 80-ci illərinin sonunda respublika rəhbərliyinin zəifliyi səbəbindən münaqişənin başlanmasının qeyd olunmasıdır. Müəllif sonrakı prosesləri mərhələlərə bölüb, o cümlədən ATƏT-in Minsk qrupunun fəaliyyəti, atəşkəsə nail olunması, Lissabon sammitinin müddəaları və ikili standartlar diqqətə çatdırılıb. Sonda akademik xüsusi vurğulayır ki, N.Paşinyan tərəfindən anons edilmiş "iqtisadi inqilab" və Ermənistanın sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə və ədalətli şəkildə nizamlanmadan baş verməyəcək.

Milli Məclisin deputatı, DİA-nın Dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti Aydın Mirzəzadə deyib: "Akademik Ramiz Mehdiyev tədqiq etdiyi mövzu ilə bağlı birbaşa proseslərin içindədir. Bu baxımdan onun əsərləri nəinki indi, gələcəkdə də oxucular və tədqiqatçılar üçün çox maraqlı olacaq. Yeni əsər sistemlidir, belə ki, burada problemin tarixi köklərindən başlayaraq bugünə qədər olan bütün mərhələlər əhatə olunur. Əsər, həmçinin faktlarla zəngindir. Eyni zamanda, əsərdə mövzu ilə bağlı yeni faktlar aşkarlanır - bu həmin faktlardır ki, biz onlara indiyə qədər diqqət yetirməmiş, öz təbliğatımızda ondan istifadə etməmişik".

Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov əsərdə çar Rusiyasından başlayaraq sovet dövrünədək münaqişənin köklərinin hərtərəfli araşdırıldığını, müəllifin sistemli təhlil apardığını, A.Qriboyedov, S.Qlinka, N.Şavrov və başqa mənbələri tədqiqata cəlb edərək Dağlıq Qarabağ münaqişəsinin necə yarandığını oxucuya təqdim etdiyini bildirib. Əsərdən aydın olur ki, istər çar, istərsə də sovet Rusiyası konkret ərazini - Azərbaycanı ermənilər vasitəsilə nəzarətdə saxlamağa istəyir. Müstəqillik illərində Azərbaycanın siyasəti sayəsində ölkənin dünyada hörmət qazanmış sabit dövlətə çevrildiyini yazan müəllif, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın sülhə tərəfdar olduğunu, lakin hərbi yolla həlli hüququnu da özümüzdə saxladığını bildirir. "Əsər rus və Azərbaycan dillərində nəşr edilib. Onun BMT-nin 6 dilinə tərcümə edilməsi çox əhəmiyyətli olardı", - deyə professor Elman Nəsirov vurğulayıb.

DİA-nın prorektoru, hüquq üzrə elmlər doktoru Mehdi Abdullayev Azərbaycan elminə töhfə olan bu əsərdə Dağlıq Qarabağ probleminin siyasi, hüquqi, tarixi aspektlərdən təhlil edildiyini söyləyib. Qeyd edib ki, müəllif əsərdə SSRİ dağılandan sonra Azərbaycanın beynəlxalq sərhədlərinin (digər müttəfiq respublikaların sərhədləri kimi) dünya birliyi tərəfindən "uti possidetis juris" prinsipi əsasında, yəni, müstəqillik əldə edildiyi anda mövcud olan keçmiş inzibati sərhədlər çərçivəsində tanındığını göstərir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov vurğulayıb ki, akademik Ramiz Mehdiyevin yeni əsəri müasir dövrdə cəlb edildiyimiz münaqişə ilə daha yaxından tanış olmaq istəyən hər bir tədqiqatçıda real təsəvvür yaradacaq, müstəqil tariximizdə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı aparılan tədqiqatların kompleks şəkildə öyrənilməsi üçün mühüm mənbə rolunu oynayacaq.

Professor Elçin Əhmədov bildirib ki, əsərdə tarixi sənədlər əsasında təkzibedilməz faktlarla Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə ermənilərin Dağlıq Qarabağı Azərbaycandan ayırmaq cəhdlərinin əsassız və qeyri-qanuni olması sübut edilir: "Müəllif qeyd edir ki, 1980-ci illərin axırlarında SSRİ-də "yenidənqurma" adı altında baş verən hadisələrə və dağıdıcı proseslərə diqqətlə nəzər saldıqda, qondarma "Dağlıq Qarabağ problemi"nin tamamilə süni mahiyyət daşıdığı aydın olur. Həmin dövrdə SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyevin hakimiyyətdən kənarlaşdırılması nəticəsində Ermənistanın ultramillətçi dairələri, onların Kremldəki və xarici ölkələrdəki havadarları tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması və onun Ermənistana inteqrasiya edilməsi üçün əlverişli siyasi zəmin yaradıldı".

Əsərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin zəngin mənbələr əsasında kompleks şəkildə araşdırıldığını vurğulayan Elçin Əhmədov onun elmi-nəzəri və fəlsəfi ümumiləşdirmələri baxımından Azərbaycan elminin böyük nailiyyəti kimi səciyyələndirib.

DİA-nın Hüquq kafedrasının professoru, hüquq üzrə elmlər doktoru Namiq Əliyev deyib: "Akademik Ramiz Mehdiyevin bu və əvvəlki əsərləri göstərir ki, Dağlıq Qarabağ problemi daim diqqətdə olmalıdır. Bu baxımdan əsər çox vaxtında yazılıb və orada qaldırılan məsələlərdən biz müəyyən nəticələr çıxarmalıyıq".

Müzakirələrə yekun vuran akademik Urxan Ələkbərov qeyd edib ki, akademik Ramiz Mehdiyev həm görkəmli alim, həm də yüksək idarəçilik təcrübəsinə malik şəxsiyyətdir. Onun bu əsərdə əksini tapan fikirləri vacibdir. Bu əsər də əvvəlkilər kimi tədris proqramına daxil edilməlidir.

# Münaqişənin sülh yolu ilə həllində maraqlı olan tərəf siyasi iradə və qətiyyət nümayiş etdirməlidir

Ermənistanın xarici işlər naziri dünən mətbuat brifinqində "bir əl ilə danışıqlar aparıb, digər əl ilə atəş açmaq olmaz" deyərək Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun "bugünədək müzakirə olunan sənədlər üzrə danışıqlar aparanda cəbhədə heç də tam sakitlik hökm sürmürdü" fikrinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva məsələni şərh edərək deyib: "Xarici işlər naziri Elmar Məmmədyarov Vaşinqton görüşünün nəticələri ilə bağlı KİV nümayəndələrinin sualını cavablandırarkən qeyd edib ki, münaqişənin tərəfləri qismində Ermənistan və Azərbaycan tərəfləri istər Madrid prinsipləri, onların yenilənmiş variantı, istər Kazan prinsipləri və ya "Lavrov planı" adlandırılan sənəd olsun, bunlar üzrə danışıqlar apararkən də təmas xəttində gərginliklər olub. Bununla belə, substantiv və intensiv dialoq davam etdirilirdi. Yəni, danışıqlar prosesi cəbhə xəttindəki vəziyyətin girovuna çevrilməməlidir. Bunu anlamamaq və bu deyiləndən nəticə çıxarmamaq "Ermənistan tərəfinin danışıqlar prosesinin irəli aparılmaması üçün bəhanələr axtarır" fikrini bir daha təsdiq edir. Xatırladaq ki, cəbhə xəttindəki gərginliyin səbəbi məhz Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğudur və bu gərginliyə son qoymaq üçün danışıqlar prosesi substantiv məsələlərin həlli üzrə irəli aparılmalıdır. Ermənistan tərəfinin məntiqi ilə Düşənbə görüşündən sonra əldə edilmiş qarşılıqlı razılıq əsasında cəbhə bölgəsindəki nisbi sakitlik dövründə biz danışıqlarda konkret nəticələr əldə etməli idik, lakin hər şey göz qabağındadır. Münaqişənin sülh yolu ilə həllində maraqlı olan tərəf konkret nəticəyə yönəlik danışıqlardan yayınmaq üçün bəhanə axtarmamalıdır, siyasi iradə və qətiyyət nümayiş etdirməlidir. Ermənistan tərəfindən bizim və beynəlxalq ictimaiyyətin gözləntisi bundan ibarətdir".

# AŞ PA-nın saytında Ermənistanın girovluqda saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı bəyanat yayılıb

AŞ PA-nın yay sessiyası çərçivəsində qurumdakı nümayəndə heyətimiz Ermənistan tərəfindən girov götürülmüş azərbaycanlı mülki şəxslərlə bağlı məsələyə həsr edilən "İki azərbaycanlı mülki şəxsin humanitar məsələsi: Dilqəm Əsgərov və Şahbaz Quliyev" adlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə azərbaycanlı girovların acınacaqlı vəziyyətdə saxlanılması, həyatlarının təhlükədə olması, səhhətlərinin ağır olması ilə bağlı məlumatlar verilib. Bütün bunları nəzərə alaraq, tədbir iştirakçıları bu iki azərbaycanlı girovun azad edilməsi məqsədilə Avropa Şurasının Baş katibinə, Avropa Şurası Parlament Assambleyasına və qurumun insan hüquqları üzrə müvəkkilinə bəyanat ünvanlayıblar. Bəyanat avropalı parlamentarlar tərəfindən imzalanıb və ünvanlandığı şəxslərə çatdırılıb. Bəyanat qurumun internet səhifəsində yayılıb.

Bəyanatda azərbaycanlıların hansı şəraitdə girov götürüldükləri diqqətə çatdırılaraq onların azad edilməsi üçün çağırışlar edilir.

Bəyanatda deyilir: "2019-cu il iyulun 11-də Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevin Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu yaxınlığında qohumlarının qəbirlərini ziyarət edərkən girov götürülməsinin beş ili tamam olacaq. Onlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından zorla didərgin salınmış yüz minlərlə azərbaycanlı icmasını təmsil edirlər. Bu günə qədər onların azad edilməsi ilə bağlı bütün çağırışların rədd edilməsindən dərin narahatlıq duyuruq. Bildiririk ki, 2015-ci ildə onlarla bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət edilib. Cari il iyunun 25-də AŞ PA-da bu qurumdakı Azərbaycan nümayəndə heyətinin təşkil etdiyi tədbir zamanı bir daha xatırladıldı ki, Əsgərov və Quliyev həyatları üçün təhlükəli və ümidsiz vəziyyətdədirlər və bu vəziyyətə son qoyulması məqsədilə beynəlxalq ictimaiyyət onlara dair humanitar məsələ ilə bağlı qəti reaksiya göstərməlidir. Buna görə də təcili olaraq Avropa Şurasının Baş katibini, AŞ PA-nı və qurumun insan hüquqları üzrə müvəkkilini bu iki azərbaycanlı girovun pozulmuş hüquqlarını bərpa etmək üçün dərhal və qeyd-şərtsiz azad edilmələrini təmin etməyə çağırırıq. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin onların azad edilməsi ilə bağlı qərarını səbirsizliklə gözləyirik".

# 15 minədək ailə özünüməşğulluq proqramına cəlb ediləcək

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Gəncə şəhərində özünüməşğulluq proqramı çərçivəsində yaradılmış ayrı-ayrı kiçik müəssisələrə baxış keçirib.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 2018-ci ildə Gəncə şəhərində 200-ə yaxın işsiz və işaxtaran şəxs özünüməşğulluq proqramının iştirakçısı olub. Həmin şəxslər üçün ilk növbədə müvafiq təlim kursu təşkil edilib, özünüməşğulluq fəaliyyəti, kiçik biznesin təşkili və idarə edilməsi ilə bağlı onlara zəruri bilik və bacarıqlar öyrədilib. Proqrama cəlb edilənlər biznes-planlarına uyğun şəkildə mal və materiallar formasında aktivlərlə təmin edilərək öz kiçik ailə təsərrüfatlarını qurublar.

S.Babayev proqram iştirakçıları ilə görüşündə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən icra olunan özünüməşğulluq proqramının aztəminatlı ailələrin özünüməşğulluğuna, onların kiçik ailə biznesinə çıxışına və sosial yardım proqramından asılılığının aradan qalxmasına şərait yaratdığını vurğulayıb.

Nazir bildirib ki, ötən il proqrama cəlb olunanların sayı 6,5 dəfə artırılaraq 7,3 minə çatdırılıb. Bu il isə 10 minədək ailənin proqramla əhatə edilməsi üçün işlər aparılır. Gələn il özünüməşğulluq proqramının daha da genişləndirilməsi, 15 minədək ailənin proqrama cəlb edilməsi nəzərdə tutulur.

Özünüməşğulluq proqramı çərçivəsində öz kiçik biznes sahələrini yaradan vətəndaşlar bu mühüm sosial proqramın onların həyatında önəmli rol oynadığını qeyd ediblər. Proqram iştirakçıları onlara işsizlikdən sahibkarlığa keçid imkanı əldə etmək üçün yaradılan şəraitə, göstərilən böyük dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan vətəndaşının rifahı dövlətin sosial siyasətinin qayəsini təşkil edir

***Əvvəli 1-ci səh.***

Bu ilin əvvəlindən ötən il anonsu verilən böyük sosial paketin icrası, onun ardınca ikinci sosial paketin tətbiqi insanlarda yüksək həyat səviyyəsinə əminlik yaradır, xalq öz dövlətinə, liderinə daha çox güvənir, daha sıx bağlanır.

Şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsi, problemli kreditlərin həlli, çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi, əməkhaqlarının, pensiyaların, tələbə təqaüdlərinin, müavinətlərin artırılması sosial sahədə atılan ciddi addımlardır. İlin əvvəlindən bəri Prezident İlham Əliyevin sosial paketlər çərçivəsində imzaladığı sərəncamlar ölkə əhalisinin bütün təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə, güzəranının yaxşılaşmasına xidmət edir.

Bu çoxsaylı sərəncamları qısa şərh etmək mümkün deyil. Lakin bəzi məqamları ekspertlərin dili ilə şərh etsək, onu deyə bilərik ki, sosial sahədə reallaşdırılan tədbirlər inqilabi xarakter daşıyır və həyata keçirilən dövlət siyasətinin mahiyyətini tam əks etdirir.

Minimum əməkhaqqının 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə maaşların orta hesabla 40 faiz artaraq 265 manatdan 367 manata yüksəlməsinə imkan verəcək. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon manat vəsait ayrılmalıdır. Bütünlükdə 2,5 milyard manat vəsait tələb edən ikinci sosial paket ümumilikdə 5 milyon ölkə vətəndaşının maddi durumuna müsbət təsir göstərəcək.

Bütün bunlar bir daha sübut edir ki, ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrini uğurla davam etdirən, ona daim müasirlik, yenilik gətirən Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti möhkəm elmi əsaslara söykənir, dərin araşdırmalar əsasında qurulur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib

İyunun 28-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib.

Sessiyanın gündəliyində aşağıdakı məsələlər verilib.

1. 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları.

2. Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi.

Gündəlikdə duran birinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev deyib ki, görülmüş tədbirlərin nəticəsində muxtar respublikada aqrar sahənin inkişafı təmin edilib, 2019-cu ildə 27 min 231 hektar sahədə yazlıq əkin keçirilib, cari ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilib. Hazırda muxtar respublikada taxıl biçini davam etdirilir. Bu il tədarük məntəqələri məhsul istehsalçılarından buğdanın hər kiloqramını 35, arpanın hər kiloqramını 30, qarğıdalının isə hər kiloqramını 40 qəpikdən qəbul edir. Muxtar respublikada tütünçülüyün də inkişafına diqqət artırılıb, 50,5 hektar sahədə tütün əkilib, 317,2 hektar sahədə meşəsalma, meşəbərpa və toxumla əkin aparılıb. 2019-cu ilin ötən dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı banklar tərəfindən 4 milyon 789 min 600 manat kredit verilib, məhsul istehsalçıları 7079 ton mineral gübrə ilə təmin olunub. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 133 milyon 73 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilib, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,2, süd istehsalı 1,5, yun istehsalı 1,6, yumurta istehsalı 1,3 faiz artıb. Kənd təsərrüfatının dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərib, nəticədə bu ilin 6 ayında muxtar respublika üzrə 40 milyon 359 min Amerika Birləşmiş Ştatları dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək deyib ki, 2019-cu ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 64 milyon 357 min manat həcmində inşaat işləri yerinə yetirilib ki, bunun da 60 milyon 751 min manatını və ya 94,4 faizini tikinti-quraşdırma işləri təşkil edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov deyib ki, 2019-cu ilin 6 ayında sosial-iqtisadi həyatın bütün sahələri üzrə inkişaf istiqamətləri qorunub saxlanılıb, müsbət irəliləyişlərə nail olunub. Bu dövrdə iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 278 milyon 115 min manat olub. Ümumi daxili məhsulun 57,5 faizi və ya 734 milyon 701 min manatı istehsalın payına düşüb. Hesabat dövründə bir il öncəyə nisbətən sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,8 faiz, informasiya və rabitə xidmətləri 3,9 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 4,6 faiz artıb. Hesabat dövründə bütün maliyyə mənbələri hesabına əsas kapitala 554 milyon 460 min manat vəsait yönəldilib ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur.

Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə edib.



O bildirib ki, bu il ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 ili tamam olur. Dahi şəxsiyyətin ölkəmizə birinci rəhbərliyi dövründə mühüm işlər görülmüş, 1969-cu ilin 14 iyulu Azərbaycanın inkişaf və tərəqqi tarixinə çevrilmişdir. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır", - deyən ulu öndər ölkəmizə ikinci rəhbərliyi dövründə isə Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını yaratmış, xalqımız Milli Qurtuluşa nail olmuş, dövlətçiliyimiz və müstəqilliyimiz qorunub saxlanılmışdır.

Əsası ümummilli lider tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. "Ailə təsərrüfatları ili" olan 2019-cu ilin birinci yarısında da muxtar respublikada daxili imkanlardan səmərəli istifadə olunmuş, iqtisadi inkişaf təmin edilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, iş yerləri açılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi qeyd edilmiş, dövlət proqramlarının uğurlu icrası, mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatı şaxələndirmiş, bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuşdur.

Muxtar respublikanın davamlı və tarazlı inkişafı sosial-iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini zəruri edir. 2019-cu ilin ikinci yarısında da Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatlar davam etdirilməli, makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunmalıdır. Maliyyə Nazirliyi büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarəti daha da gücləndirməli, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılmalıdır. Dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməli, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən bütün tədiyyə növləri üzrə vergi və rüsumlar vaxtında ödənilməlidir.

Müasir dövrdə ailə təsərrüfatları özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa mühüm töhfə verir. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri yerli icra orqanları ilə birlikdə ailə təsərrüfatlarının inkişafı ilə bağlı yeni təkliflər hazırlamalı, qabaqcıl ailə təsərrüfatlarının təcrübələri yayılmalı, ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməli, kreditlər verilməlidir.

Xarici ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi iqtisadi inkişafın əsas hədəfidir. Xüsusilə idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. İqtisadiyyat Nazirliyi muxtar respublikada xarici ticarət dövriyyəsinin artan dinamikasını davam etdirməli, yerli xammala əsaslanan istehsal müəssisələri yaradılmalı, yeni investisiyaların cəlbi və təşviqi istiqamətində tədbirlər görülməlidir. İqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi üçün biznes mühiti daha da yaxşılaşdırılmalı, sahibkarlıq subyektlərinə hərtərəfli köməklik göstərilməli, istehsalın həcmi artırılmalı, daxili bazar qorunmalı, istehlak qiymətlərinə nəzarət olunmalı və süni qiymət artımına yol verilməməlidir.

Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti gücləndirməli, torpaqların elektron uçotu və xəritələşdirilməsi işi vaxtında başa çatdırılmalıdır.

Dövlət Baş Sığorta Agentliyi muxtar respublikada sığorta işini təkmilləşdirməli, könüllü sığortanın tətbiqini və səyyar xidmətin əhatə dairəsini genişləndirməli, insanlar maarifləndirilməli, sığorta bazarında aqrar sektorun xüsusi çəkisi artırılmalıdır.

Muxtar respublikada yol infrastrukturunun müasirləşdirilməsi və nəqliyyat xidmətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər bu il də davam etdirilir, magistral və kənd yolları yenidən qurulur, sərnişindaşımanın keyfiyyəti artırılır. Avtomobil Yolları Dövlət Agentliyi yol tikintisində keyfiyyətə xüsusi diqqət yetirməli, Dövlət Nəqliyyat Xidməti tərəfindən ictimai nəqliyyatda xidmətin səviyyəsi yüksəldilməli, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır.

Rabitə və Yeni Texnologiyalar Nazirliyi yeni texnologiyaların tətbiqini diqqətdə saxlamalı, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilməli, maddi-texniki baza gücləndirilməli, ixtisaslı kadr hazırlığı davam etdirilməlidir.

Muxtar respublikanın inkişafında təhsil quruculuğu əsas yer tutur. Təhsil Nazirliyi yaradılan şəraitdən istifadə edərək tədrisin keyfiyyətini yüksəltməli, bu zaman yeni texnologiyalardan səmərəli istifadə edilməli, müəllim hazırlığı ilə bağlı innovativ təklif və layihələr dəstəklənməli, ali məktəblərin professor-müəllim heyəti ilə birgə dərslik və dərs vəsaitlərinin müzakirəsi aparılmalı, gənclərin təhsili ilə yanaşı, onların peşə sahələrinə yönləndirilməsinə də diqqət artırılmalıdır.

Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunmasına və səhiyyə maarifinə diqqəti artırmalı, həkim hazırlığı və tibbi təhsilin səviyyəsi yüksəldilməlidir. Səhiyyə müəssisələrində quraşdırılan müasir tibbi avadanlıqlardan səmərəli istifadə olunmalı, həkim və tibb işçiləri mütəmadi kurslara göndərilməlidir.

Mədəniyyət Nazirliyi muzeylərin, mədəniyyət abidələrinin, mədəni irsin qorunmasına və təbliğinə yönəlmiş tədbirləri davam etdirməli, tabeliyində olan müəssisələrin fəaliyyətini günün tələbləri səviyyəsində qurmalıdır.

Gənclər və İdman Nazirliyi muxtar respublikada olan idman infrastrukturundan istifadəyə və onların qorunub saxlanılmasına, gənclərlə iş sahəsində fəaliyyətə diqqəti artırmalı, idman federasiyaları ilə əlaqələri gücləndirməli, yarışlar keçirilməli, idmanın kütləviliyinə nail olunmalıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası sahəsində tədbirləri davam etdirməli, peşə hazırlığını əmək bazarının tələblərinə uyğunlaşdırmalıdır.

Müasir dövrdə turizm hər bir ölkənin inkişafında əsas sahə kimi götürülür. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiyalar vaxtında ödənilməli, pensiya təyinatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılmalı, əmək fəaliyyətinə yeni başlayan işçilər fərdi uçot sistemində qeydiyyata alınmalı və sosial sığorta şəhadətnamələri ilə təmin olunmalı, elektron xidmətlərin əhatə dairəsi genişləndirilməlidir.

Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsində aparılan islahatların tərkib hissəsi kimi əhalinin keyfiyyətli tibbi xidmətlə təminatına hesablanmışdır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Şərur və Kəngərli rayonlarında icbari tibbi sığortanın tətbiqini təmin etməli, mərkəzləşmiş məlumat bazası və elektron idarəetmə sistemi təkmilləşdirilməlidir.

Vasif Talıbovun sözlərinə görə, 2019-cu ilin birinci yarısının nəticələri onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət Naxçıvan Muxtar Respublikasında inkişaf dinamikasını qoruyub saxlamışdır. O deyib: "Bu inkişafın davam etdirilməsində və qarşıya qoyulan vəzifələrin icrasında Sizə və muxtar respublika əhalisinə uğurlar arzulayır, çıxışımı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: "Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcək və daim irəli gedəcəyik".

* * *

Gündəlikdə duran ikinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin 2018-ci ildə gəlirləri 73 milyon 400 min manat təyinata qarşı 86 milyon 794 min 879 manat və ya 118,2 faiz icra olunmaqla büdcəyə 13 milyon 394 min 879 manat artıq vəsait mədaxil edilib. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 355 milyon 300 min manat proqnoza qarşı 354 milyon 466 min 625 manat və ya 99,8 faiz icra olunub.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilib.

### Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin iyul ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**4 iyul 2019-cu il**

1. Şəki rayonu
2. Abşeron rayonu
3. Gədəbəy rayonu

**18 iyul 2019-cu il**

1. Sabirabad rayonu
2. Tərtər rayonu
3. Zəngilan rayonu

Qeyd: qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

## Prezident İlham Əliyevin tapşırığına əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilib

İyunun 28-də təhsil naziri Ceyhun Bayramov Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində Şəki, Oğuz və Qəbələ rayonlarının sakinlərini qəbul edib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşların müraciətləri əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya) və digər məsələlərlə bağlı olub.

* * *

İyunun 28-də energetika naziri Pərviz Şahbazov Xaçmaz şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Xaçmaz filialının inzibati binasında vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbulda Xaçmaz və Şabran rayonlarının sakinləri iştirak edib.

Həmin gün energetika nazirinin müavini Samir Vəliyev Quba şəhərində Quba və Qusar, nazir müavini Elnur Soltanov isə Siyəzən şəhərində Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul ediblər.

Vətəndaşların müraciətləri elektrik enerjisi təchizatı, elektrik şəbəkəsinin texniki vəziyyəti, elektrik enerjisinin keyfiyyəti, yüksəkgərginlikli elektrik veriliş xətlərinin yaşayış evlərinə yaxın ərazidən keçməsi, elektrik xətlərinin köhnəlməsi, transformatorla təminolunma, elektrik qurğu və avadanlıqlarının yeri və istismar vəziyyəti, elektrik sayğacının quraşdırılması, sahibkarlıq obyektlərində əlavə qaz sərfiyyatının hesablanması, fərdi yaşayış evlərinin qazlaşdırılması, itirilmiş təbii qaza görə dəymiş ziyanın hesablanması, işlə təminat və digər məsələlərlə bağlı olub.

Energetika Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlərin isə araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Gəncə şəhərində həmin şəhərin vətəndaşlarını fərdi qaydada qəbul edib.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlarla görüşdə onların bu və ya digər sosial təminat növünə hüququn müəyyən edilməsi, məşğulluğun təminatı, aktiv məşğulluq tədbirlərinə və özünüməşğulluq proqramına cəlb olunma, əlilliyin qiymətləndirilməsi, bərpa müalicəsinə kömək göstərilməsi, reabilitasiya vasitələri ilə təminat, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə əlaqədar müraciətləri dinlənilib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli ilə bağlı tədbirlər görülüb. Müraciətlərinə uyğun olaraq, bir sıra vətəndaşların aktiv məşğulluq proqramlarına, reabilitasiya tədbirlərinə cəlb edilmələri tapşırılıb. İşlə təmin edilmək üçün müraciət edən ayrı-ayrı şəxslərə ərazidəki vakant iş yerlərinə göndərişlər verilib. Müvafiq hallarda vətəndaşlara müraciətlərinə uyğun ətraflı izahatlar verilib.

Eyni zamanda, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli Samux rayonunda və əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Göygöl rayonunda vətəndaşları fərdi qaydada qəbul ediblər. Vətəndaşların müraciətləri cavablandırılaraq müraciətlərdə əksini tapan məsələlərlə əlaqədar qanunvericilik çərçivəsində müvafiq tədbirlərin görülməsi təmin edilib.

* * *

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iyunun 28-də Quba şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Həmin gün ekologiya və təbii sərvətlər nazirinin müavinləri Firdovsi Əliyev Xaçmaz, Rauf Hacıyev isə Siyəzən rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbullar zamanı meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılır, vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 28-də Baş prokuror Zakir Qaralov Astara Rayon Prokurorluğunun inzibati binasında Astara, Lerik və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror Zakir Qaralov bölgədə yaşayan 19 vətəndaşın müraciətini dinləyərək qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə iyunun 28-də şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Qax rayonunda vətəndaşları qəbul edib.

DİM-dən AZƏRTAC-a bildirilib ki, qəbulda Qax rayonunun sakinləri ilə yanaşı, Zaqatala və Balakən rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən subbakalavrların ali təhsil müəssisələrinə imtahansız qəbulu, ali və orta ixtisas təhsili müəssisələrinə abituriyentlərin qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, rezidenturaya qəbul, qabiliyyət imtahanları və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

## Azərbaycan İsveçrənin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır

### Şahin MUSTAFAYEV: “Son 5 ayda ikitərəfli ticarət dövriyyəsi 8,8 dəfə artıb”





Berndə Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Federal Şurası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclası keçirilib. Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin və İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin İkitərəfli İqtisadi Əlaqələr İdarəsinin rəhbəri Ervin Bolingerin həmsədrlik etdiyi Birgə Komissiyanın iclasında hər iki ölkənin komissiyada təmsil olunan qurumlarının rəsmiləri və özəl sektorun təmsilçiləri iştirak edib.

İclasda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev dünyada iqtisadi artım tempinin, ticarət və emal sektorunun zəifləməsinə, qlobal iqtisadiyyatdakı risklərə baxmayaraq, Azərbaycanda həyata keçirilən məqsədyönlü, qlobal çağırışlara cavab verən siyasət nəticəsində yaradılmış siyasi-iqtisadi və maliyyə sabitliyini, ölkəmizin böyük tranzit potensialını, həyata keçirilən iri regional layihələri, əlverişli biznes və investisiya mühitini diqqətə çatdırıb, dəyişkən qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlılıq göstərdiyini, ölkəmizdə kompleks sosial islahatların həyata keçirildiyini vurğulayıb. Qeyd edilib ki, makroiqtisadi və maliyyə sabitliyinin qorunması istiqamətində görülmüş işlər nəticəsində 2019-cu ilin birinci rübündə Azərbaycanda ÜDM 3 faiz, qeyri-neft üzrə ÜDM-i 1,7 faiz, qeyri-neft sənayesi 16,1 faiz artıb. Hesablamalara görə, 2019-cu ildə ÜDM 3,2 faiz, qeyri-neft üzrə isə ÜDM-i 3,4 faiz artacaqdır.

Ötən il ölkə iqtisadiyyatına 8,2 milyard dolları xarici investisiyalar olmaqla, 15,3 milyard dollar investisiya yatırılıb. Ümumilikdə isə, müstəqillik illərində investisiyaların həcmi 263 milyard dollar olub ki, bunun da 50 faizdən çoxu xarici sərmayələrdir. Bu ilin 1 yanvar tarixinə Azərbaycanın xarici dövlət borcu 8,9 milyard dollar olmaqla, ÜDM-in 19 faizini təşkil edib.

Təsadüfi deyildir ki, Avropa İttifaqı Biznes Mühiti Hesabatı üçün bu il keçirilmiş sorğuda Aİ şirkətlərinin 74 faizi Azərbaycandakı makroiqtisadi vəziyyəti güclü və qənaətbəxş, 90 faizi isə makroiqtisadi vəziyyətin perspektivlərini yaxşı və sabit kimi qiymətləndirib.

Qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafının Azərbaycanın iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu vurğulayan nazir Şahin Mustafayev ölkəmizdə yaradılan sənaye və texnologiyalar parkları, sənaye məhəllələri və aqroparklar barədə məlumat verib. O, İsveçrə iş adamlarını Azərbaycandakı əlverişli işgüzar mühitdən yararlanmağa dəvət edib. Nazir Şahin Mustafayev ölkəmizdə sahibkarlığın inkişafı, qeyri-neft ixracının artırılması və ixracın şaxələndirilməsi, “Made in Azerbaijan” brendinin təşviqi istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdırıb. Həyata keçirilən islahatların və tədbirlərin məntiqi nəticəsidir ki, Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, MDB ölkələri arasında lider olmaqla, dünyanın ən islahatçı 10 ölkəsindən biri və ən çox islahat aparan ölkə hesab olunur.

Azərbaycanın İsveçrə ilə əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini bildirən iqtisadiyyat naziri ölkəmizin İsveçrənin Cənubi Qafqaz regionu üzrə əsas ticarət tərəfdaşı olduğunu qeyd edib. 2018-ci ildə İsveçrənin Cənubi Qafqaz üzrə ümumi dövriyyəsinin 52 faizini məhz Azərbaycanla ticarət təşkil edib. Belə ki, ötən il Azərbaycanla İsveçrə arasında ticarət dövriyyəsi 648 milyon dollar olub ki, bu da 2017-ci illə müqayisədə 2,7 dəfə çoxdur. 2019-cu ilin yanvar-may aylarında ikitərəfli ticarət dövriyyəsi 881 milyon dollar və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,8 dəfə çox olub. Azərbaycanın qeyri-neft məhsullarının ixracında İsveçrə qabaqcıl yerlərdən birini tutur.

Nazir qeyd edib ki, iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi üçün ardıcıl tədbirlər görülür, ixrac missiyaları və biznes forumlar təşkil olunur. Azərbaycanın ixrac missiyalarından ikisi İsveçrəyə təşkil edilib. 2017-ci ildən etibarən Azərbaycanın Polşadakı Səfirliyində İsveçrə də daxil olmaqla Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi fəaliyyət göstərir.

İqtisadi əlaqələrin genişləndirilməsi istiqamətlərindən danışan Şahin Mustafayev sənaye, kənd təsərrüfatı, əczaçılıq, tranzit daşımaları, turizm və s. sahələrdə geniş potensialın olduğunu diqqətə çatdırıb, “Cənub qaz dəhlizi” layihəsinin Avropanın enerji təhlükəsizliyinə yeni və mühüm töhfə olduğunu, bu sahədə əlaqələrin daha da genişlənəcəyini bildirib.

Komissiyanın iclasında Azərbaycanın nəqliyyat-tranzit imkanları barədə məlumat verilib, ölkəmizin ərazisindən keçən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişli olduğu diqqətə çatdırılıb.

İclasda müxtəlif sahələrdə əməkdaşlığın inkişafı perspektivləri barədə müzakirələr aparılıb, iqtisadi-ticarət əlaqələrinin, investisiya, turizm, təhsil, İKT, kiçik və orta biznes üzrə əməkdaşlığın genişləndirilməsi imkanları, bir sıra məhsulların, o cümlədən fındıq ixracının artırılması üçün böyük potensialın olduğu qeyd edilib.

İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi Ervin Bolinger ölkəsinin Azərbaycanla əlaqələrinin yüksək səviyyədə olduğunu, İsveçrə şirkətlərinin Azərbaycanda aparılan islahatları müsbət qiymətləndirdiklərini və İsveçrə iş adamlarının Azərbaycanda uğurlu fəaliyyətini qeyd edib. O, Azərbaycanda əlverişli biznes mühitinin yaradıldığını vurğulayıb, ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib, əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. Ervin Bolinger İsveçrə iqtisadiyyatı barədə məlumat verib, Azərbaycan-İsveçrə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində və yeni əməkdaşlıq imkanlarının təşviq olunmasında komissiyanın rolunu vurğulayıb.

İclasın sonunda Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Federal Şurası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi Ervin Bolinger imzalayıb. Sənəddə iqtisadi-ticarət, enerji, sənaye, İKT, təhsil, kənd təsərrüfatı, turizm və s. sahələrdə əməkdaşlığın, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi nəzərdə tutulur.

Hökumətlərarası Komissiyanın iclası çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və İsveçrənin Kiçik və Orta Sahibkarlar Assosiasiyası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İsveçrənin Kiçik və Orta Sahibkarlar Assosiasiyasının prezidenti Jozef Rosenflu imzalayıblar.

Memorandum Azərbaycan və İsveçrənin kiçik və orta biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə ticarət, investisiya, iqtisadi əməkdaşlıq, kiçik və orta biznes sahələrində qarşılıqlı məlumat, həmçinin KOB sektorunda təcrübə mübadiləsini, bu sahədə əlaqələrin inkişafı üçün birgə təşviq tədbirlərinin təşkilini və digər istiqamətlərdə əməkdaşlığı ehtiva edir.

Azərbaycan nümayəndə heyətinin İsveçrə Konfederasiyasına səfəri çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayev İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi Ervin Bolingerlə görüşüb.

Görüşdə nazir Şahin Mustafayev Azərbaycanla İsveçrə arasında əlaqələrin səmimi dostluq, qarşılıqlı hörmət, etimad və maraq prinsiplərinə əsaslandığını, yüksəksəviyyəli qarşılıqlı səfərlərin, Azərbaycan Respublikası Prezidentinin ənənəvi olaraq hər il Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda iştirakının, ikitərəfli görüşlər zamanı aparılan müzakirələrin əməkdaşlığın inkişafında mühüm rol oynadığını vurğulayıb. Bildirilib ki, ölkələrimiz arasında əməkdaşlığın möhkəm müqavilə-hüquq bazası mövcuddur. İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması, ticarət-iqtisadi əməkdaşlıq, ikiqat vergitutma və digər sahələrdə 25-ə yaxın sənəd imzalanıb. Ölkələrimiz arasında iqtisadiyyatın digər sahələri ilə yanaşı, investisiya əməkdaşlığı da həyata keçirilir. Belə ki, İsveçrə tərəfindən Azərbaycan iqtisadiyyatına 844 milyon dollar investisiya yatırılıb. İnşaat materiallarının istehsalı sahəsində İsveçrənin “Holcim” şirkəti, İsveçrə şirkəti tərəfindən Sumqayıt Kimya Sənaye Parkında tikilmiş inşaat kimyəviləri zavodu uğurla fəaliyyət göstərir. Bundan başqa, İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) və Əməkdaşlıq və İnkişaf Agentliyi (SDC) ilə uğurlu əməkdaşlıq mövcuddur. Bu çərçivədə ölkəmizdə 60-dan artıq layihə həyata keçirilib ki, bu da özəl sektorun inkişafı, maliyyə infrastrukturunun təkmilləşdirilməsi və s. kimi sahələri əhatə edir.

Azərbaycanda tikinti, ticarət, nəqliyyat, xidmət, kənd təsərrüfatı sahələrində 60-dan çox İsveçrə şirkətinin fəaliyyət göstərdiyini bildirən nazir Şahin Mustafayev SOCAR-ın İsveçrədə uğurla fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Azərbaycan və İsveçrə yalnız ikitərəfli əsasda deyil, beynəlxalq maliyyə institutlarında da sıx əməkdaşlıq edirlər.

İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi Ervin Bolinger İsveçrə iqtisadiyyatı, özəl sektorun inkişafı barədə məlumat verib, ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu, ölkəmizlə enerji, ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığını vurğulayıb.

Görüşdə Azərbaycan-İsveçrə iqtisadi-ticarət əməkdaşlığının müxtəlif sahələri üzrə müzakirələr aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbacan”***

## “Sosial bağlar” layihəsinin ikinci mərhələsinə start verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi arasında özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlığın davam etdirilməsinə dair memorandum imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev və “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) sədri Məhəmməd Abdullayev imzalayıblar.

Tədbirdə ötən il layihə çərçivəsində görülən işlərə, yaradılan təsərrüfatlara dair videoçarx nümayiş olunub.

A.Əliyev vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə iqtisadi inkişafın nəticələrinin, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsinə yönəldilməsində real ifadəsini tapır.

Nazir müavini bildirib ki, dövlət başçısının təşəbbüsü ilə icra olunan özünüməşğulluq proqramına 2018-ci ildə əvvəlki illə müqayisədə 6,5 dəfə çox olmaqla 7267 nəfər cəlb edilib. Onlardan da 1000 nəfərini əlilliyi olan şəxslər, 1340 nəfərini məcburi köçkünlər, 1416 nəfərini qadınlar, 101 nəfərini cəzaçəkmə müəssisələrindən azad edilmiş vətəndaşlar və həssas kateqoriyadan olan digər şəxslər təşkil edib. Cari ildə bu proqrama 10 minədək, 2020-ci ildə isə 15 minədək ailənin cəlb olunması nəzərdə tutulub.

A.Əliyev özünüməşğulluq proqramının genişlənməsinə, bu proqram vasitəsilə kənd təsərrüfatının mühüm sahəsi olan bağçılığın inkişafına RİİB-in fəal dəstək verdiyini vurğulayıb. Qeyd edib ki, nazirliklə RİİB arasında imzalanmış memorandum çərçivəsində 2018-ci ildə “Sosial bağlar” layihəsi üzrə 41 rayonda həssas qrupları əhatə edən (şəhid ailələri, əlilliyi olanlar, aztəminatlı ailələrin üzvləri və s.) 125 ailə üçün intensiv meyvə bağları, tərəvəz və bostançılıq təsərrüfatları yaradılıb. Həmin ailələrə sahələrin suvarılması, aqrotexniki qulluq, məsləhət xidmətlərinin göstərilməsi, logistika və hazır məhsulun satışının təşkili mərhələlərində də dəstək göstərilib. Müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqlarının artırılması üçün təlim kursları təşkil edilib.

Layihənin artıq ikinci mərhələsinə başlanıldığını deyən nazir müavini bildirib ki, yeni mərhələdə bu il daha 250 aztəminatlı ailə üçün bağ və bostançılıq təsərrüfatları yaradılacaq. Bununla onların kiçik sahibkarlığa çıxışı dəstəklənəcək, həmçinin qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafına əlavə dəstək göstəriləcək.

M.Abdullayev Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə fondun icra etdiyi layihələrin ölkəmizin inkişafı proseslərinə ardıcıl dəstək olduğunu bildirib. O, bu layihələrin bir istiqamətinin də sosial sahədə aparılan islahatlara, sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirlərinə dəstək məqsədi daşıdığını vurğulayıb. RİİB-in fəaliyyəti barədə məlumat verən M.Abdullayev nazirliklə birgə reallaşan “Sosial bağlar” layihəsinin bu il də uğurla icra olunacağına əminliyini ifadə edib.

Milli Məclisin komitə sədrləri Ziyad Səmədzadə və Hadi Rəcəbli, İsmayıllı rayonundan olan layihə iştirakçısı Amil Əliyev “Sosial bağlar” layihəsinin sosial-iqtisadi əhəmiyyətini, qeyri-neft sektorunun inkişafında, aztəminatlı ailələrin kiçik ailə biznesinin qurulmasında vacibliyini vurğulayıblar.

“Sosial bağlar” layihəsinin birinci mərhələsinin iştirakçıları isə bu layihənin onların öz bağ təsərrüfatlarını qurmalarına, özünüməşğulluqlarına, kiçik sahibkarlığa çıxış imkanlarına yiyələnmələrinə səbəb olduğunu vurğulayıblar.

## Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına uyğun olaraq, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə aparılmış danışıqlar nəticəsində əldə edilmiş razılığa əsasən, 2019-cu il martın 16-da Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonu, Yuxarı Salahlı kənd sakini, 1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu və 2017-ci il iyunun 20-də Qazax rayonu ərazisində saxlanılmış Ermənistan Respublikasının vətəndaşı, 1974-cü il təvəllüdlü Karapetyan Zaven Avanesoviç 2019-cu il iyunun 28-də müvafiq olaraq tərəflərə təhvil veriliblər.

Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, humanitar proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Dövlət Sərhəd Xidməti tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

Girov götürülərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralandığı, həmçinin girovluqda saxlanılarkən bir neçə dəfə cərrahi əməliyyata məruz qaldığı üçün Elvin İbrahimov təcili olaraq xəstəxanaya yerləşdirilib.

### Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 03 | Yardımlı, Masallı |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 03 | Astara |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 03 | Lənkəran |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 04 | Sumqayıt |
| **Əkbər Hacıyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktoru | 04 | Lənkəran, Lerik |
| **Ramil İsgəndərov** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 04 | Astara |
| **Ruslan Əliyev** ARDNŞ-nin “Azəriqaz” İB-nin baş direktorunun müavini | 04 | Masallı, Yardımlı |
| **Ceyhun Bayramov** Təhsil naziri | 05 | Siyəzən, Şabran, Xaçmaz |
| **Məhəbbət Vəliyeva** Təhsil nazirinin müavini | 05 | Qusar, Quba |
| **Ramin Quluzadə** Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 05 | Gəncə, Goranboy |
| **Əli Abdullayev** Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 05 | Göygöl |
| **Azad Rəhimov** Gənclər və idman naziri | 05 | Quba, Qusar |
| **İntiqam Babayev** Gənclər və idman nazirinin müavini | 05 | Xaçmaz |
| **İsmayıl İsmayılov** Gənclər və idman nazirinin müavini | 05 | Şabran, Siyəzən |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 05 | Gədəbəy, Tovuz |
| **Əhməd Əhmədzadə** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 10 | Füzuli, Cəbrayıl |
| **Namiq Babayev** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 11 | Biləsuvar |
| **Mikayıl Cabbarov** Vergilər naziri | 12 | Qəbələ, İsmayıllı, Oğuz |
| **Sahil Babayev** Əmək və əhalinin sosial müdafiəsi naziri | 12 | Göyçay |
| **Anar Kərimov** Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 12 | İsmayıllı |
| **Mətin Kərimli** Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 12 | Ağsu |
| **Vilayət Zahirov** Ədliyyə nazirinin müavini | 12 | İsmayıllı |
| **Zakir Quliyev** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 12 | Beyləqan |
| **Rafiq Aslanov** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 12 | Ağcabədi |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 13 | Göyçay |
| **Rafiq Cəlilov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 13 | Zərdab |
| **Rüstəm Şahbazov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 13 | Ucar |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 18 | İmişli, Beyləqan, Füzuli |
| **Mayıl Şahverdiyev** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 18 | Ağcabədi, Ağdam |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 19 | Şəki |
| **Hikmət Mirzəyev** Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 19 | Qax |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 19 | Zaqatala |
| **Şahin Mustafayev** İqtisadiyyat naziri | 19 | Quba |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 19 | Qusar |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 19 | Xaçmaz |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 19 | Şabran |
| **Qorxmaz Hüseynov** “Azərsu” ASC-nin sədri | 19 | Şəki, Qax |
| **Vüqar Əhmədov** “Azərişıq” ASC-nin sədrinin vəzifəsini icra edən | 19 | Zaqatala, Balakən |
| **Ramil Yusifov** “Azərişıq” ASC-nin sədrinin müavini | 19 | Qax |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 19 | Zaqatala, Balakən |
| **Ceyhun Həsənov** Ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi | 19 | Şəki |
| **Oruc Zalov** Daxili İşlər nazirinin müavini | 20 | Quba |
| **İnam Kərimov** Kənd təsərrüfatı naziri | 21 | İsmayıllı, Qəbələ |
| **İlham Quliyev** Kənd təsərrüfatı nazirinin müavini | 21 | Şamaxı, Ağsu |
| **Seyfəddin Talıbov** Kənd təsərrüfatı nazirinin müavini | 21 | Göyçay, Ağdaş |
| **Mətin Eynullayev** Vergilər nazirinin müavini | 22 | Qax, Zaqatala, Balakən |
| **Teyyub Cabbarov** “Azərsu” ASC-nin sədrinin birinci müavini | 22 | Zaqatala, Balakən |
| **Etibar Məmmədov** “Azərsu” ASC-nin sədrinin müavini | 23 | Qəbələ, Oğuz |
| **Sahir Məmmədxanov** Vergilər nazirinin birinci müavini | 24 | Neftçala, Şirvan, Hacıqabul, Sabirabad, Saatlı, Salyan |
| **Zakir Qaralov** Baş prokuror | 26 | Şabran, Xaçmaz |
| **Kəmaləddin Heydərov** Fövqəladə hallar naziri | 26 | Ağdam (Quzanlı) |
| **Rəfail Mirzəyev** Fövqəladə hallar nazirinin birinci müavini | 26 | Ağcabədi |
| **Etibar Mirzəyev** Fövqəladə hallar nazirinin müavini | 26 | Beyləqan |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 26 | Quba, Qusar |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 26 | Xaçmaz |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 26 | Şabran, Siyəzən |
| **Muxtar Babayev** Ekologiya və təbii sərvətlər naziri | 26 | Gəncə, Göygöl, Samux |
| **Firdovsi Əliyev** Ekologiya və təbii sərvətlər nazirinin müavini | 26 | Gədəbəy |
| **Rauf Hacıyev** Ekologiya və təbii sərvətlər nazirinin müavini | 26 | Daşkəsən |
| **Pərviz Şahbazov** Energetika naziri | 26 | Şəki, Qax |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 26 | Qəbələ, Oğuz |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 26 | Zaqatala, Balakən |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 26 | Qobustan, Şamaxı |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 26 | Xızı |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 26 | Siyəzən |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 26 | Lənkəran, Astara, Lerik |
| **Fuad Hüseynov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 26 | Masallı, Yardımlı |
| **Sabir Əhmədov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 26 | Cəlilabad |
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 26 | İsmayıllı, Qəbələ |
| **Sədaqət Qəhrəmanova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 26 | Şamaxı, Qobustan, Ağsu |
| **Vilayət Eyvazov** Daxili işlər naziri | 27 | Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 30 | Qax |
| **Səyyad Salahlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 30 | Zaqatala |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 30 | Balakən |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 31 | Quba, Xaçmaz |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 31 | Qusar |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.

Elm xadimləri



Elə insanlar var ki, zaman keçdikcə, daha yüksək mərtəbələrə qalxdıqca həyatını, insanlara münasibətini dəyişir. Elələri də var ki, nə qədər yüksəklərə ucalsalar belə, öz sadəliyini, təvazökarlığını, ülviliyini daim qoruyub saxlayır. Məhz haqqında söhbət açdığımız tanınmış alim, ziyalı, vətəndaş Cəbi Bəhramov belələrindəndir. Sadə və şərəfli həyat yolu keçən Cəbi Əmirvar oğlu Bəhramov 1959-cu il iyulun 16-da indiki Ermənistanın Zəngəzur mahalının Qafan şəhərində anadan olmuşdur. Ailəsi 1961-ci ildə Mehri rayonunun Aldərə kəndinə köçmüşdür. Orta təhsilini 1966-1970-ci illərdə Zəngəzur mahalının Mehri rayonunun Aldərə kəndində, 1976-1977-ci illərdə orta texniki təhsilini Sumqayıt şəhərində, ali təhsilini isə 1977-1982-ci illərdə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Daşkənd Dövlət Universitetinin Tarix fakültəsində almışdır. 1982-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin göndərişi ilə Azərbaycan SSR Elmlər Akademiyasının (indi Azərbaycan Milli Elmlər Akademiyası) A.A.Bakıxanov adına Tarix İnstitutuna baş laborant vəzifəsinə qəbul edilmişdir. 1982-1987-ci illərdə o, baş laborant, 1998-2000-ci illərdə kiçik elmi işçi, 2000-2001-ci illərdə baş elmi işçi vəzifələrində çalışmışdır. 2001-ci ildən AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində işləyir. 2003-2010-cu illərdə və 2016-cı ildən ictimai əsaslarla institutun "Azərbaycan Respublikasının tarixi" şöbəsinə rəhbərlik edir. 1999-cu ildə "Azərbaycan dəniz neftçıxarma sənayesinin yaranması və inkişaf tarixi (1949-1980-ci illər)" adlı dissertasiya mövzusunu müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini, 2018-ci ildə dosent elmi adını alıb.

# Əsl vətəndaş, təəssübkeş ziyalı

Cəbi Bəhramov işləyə-işləyə, öyrənə-öyrənə inkişaf edən bir şəxs olduğundan ona tapşırılan işin öhdəsindən həmişə layiqincə gəlir. Dərin təfəkkürə malik professor Cəbi Bəhramov 2003-cü ildən bu günədək AMEA Rəyasət Heyəti İctimai Elmlər Bölməsinin Tarix üzrə Problem Şurasının üzvüdür. Tanınmış alim C.Bəhramov 2003-2018-ci illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərmiş D.161.01 Dissertasiya Şurasının elmi katibi vəzifəsini yerinə yetirmiş və bu müddət ərzində Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı, Şimali Kipr Cümhuriyyəti vətəndaşlarının da tarix üzrə fəlsəfə doktoru və tarix üzrə elmlər doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiə olunması işinə böyük əmək sərf etmişdir.

Vətənpərvər ziyalı olan Cəbi Bəhramovun tədqiqatlarında erməni millətçilərinin Azərbaycan neft sənayesinə iqtisadi zərbə vurmaq cəhdləri arxiv sənədləri əsasında araşdırılıb ifşa olunur. O, Azərbaycan neft sənayesi tarixi problemləri ilə yanaşı Azərbaycan-Ermənistan münasibətləri, erməni terrorizmi, Rusiyanın Qafqazı işğal siyasətində erməni amili məsələlərinin tədqiqi ilə də məşğul olur. Cəbi müəllim 2003-cü ildə AMEA Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə rus və ingilis dillərində çap olunmuş "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri əməllər barədə tarixi həqiqətlər" kitabının müəlliflərindəndir.

Alim yaşadığı və çalışdığı dövrün ictimai-siyasi proseslərindən kənarda qalmayan bir şəxsiyyətdir. O, xalqının azadlığı, müstəqilliyi uğrunda XX əsrin 80-ci illərinin sonlarında başlanan milli-azadlıq hərəkatında öndə dayanmış, ictimai-siyasi proseslərdə yaxından iştirak etmişdir. 1988-ci ildə Ermənistan dövlətinin azərbaycanlıların doğma yurdlarından, tarixi etnik torpaqlarından deportasiyası bir ziyalı kimi Cəbi müəllimi mübarizə və siyasət meydanına atmışdır. El-obaya bağlı bir insan kimi tarixi etnik torpaqlarından deportasiya edilmiş soydaşlarımızın haqq səsinin dünyaya çatdırılmasında, erməni şovinizminin iç üzünün açılmasında onun müstəsna xidmətləri olmuşdur. O, Qərbi Azərbaycanın tarixi coğrafiyasının, etnik mədəniyyətinin, əxlaqi-mənəvi dəyərlərinin bilavasitə Azərbaycan türkləri ilə bağlı olduğunu qədim qaynaqlarla, elmi mənbələrlə üzə çıxarmış, düşmənlərimizin məkrli və mənfur siyasətinin mahiyyətini açıb göstərmişdir. Yuxarıda adı gedən problemlərlə bağlı əsərlərin nəşrində və yayılmasında Cəbi Bəhramovun xidmətləri danılmazdır və deyərdim ki, alqışa layiqdir.

Cəbi Bəhramov 2003-cü ildə nəşri başa çatdırılmış çoxcildli "Azərbaycan tarixi"nin VII cildinin müəlliflərindən biri və onun məsul katibidir. Bundan əlavə, o, "Aztelefilm" studiyasının çəkdiyi "Odlu məmləkət" (1998), Lider TV-nin çəkdiyi "Dəmir atlı cəngavər" (2003), İTV-nin çəkdiyi "Fətəli xan Xoyski" (2005), "Space" TV-nin çəkdiyi "Azərbaycan neftinin tarixi" (rejissor Vaqif Mustafayev, 2010, 4 seriyalı) adlı, "İki sahil" TV və CBSTV kanalının çəkdikləri veriliş və sənədli filmlərin hazırlanmasında bilavasitə iştirak edib.

İnsanları sevib, onların bütün qayğılarına həssaslıqla yanaşmaq, ehtiyaclarına kömək etmək, yardım göstərmək Cəbi Bəhramovun əxlaq normalarına çevrilmişdir. Ciddi və olduqca mükəmməl əsərlərin müəllifi olan Cəbi müəllim 2005-ci ildə Rusiya Böyük Ensiklopediyasının çapdan çıxmış xüsusi cildinə daxil edilmiş "Azərbaycan: tarixi oçerk" adlı mətnin həmmüəlliflərindən biridir. 2006-cı ilin əvvəlində Azərbaycanın görkəmli alimləri tərəfindən hazırlanaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ön söz"ü ilə nəşr edilən Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildinin ilk variantına daxil edilən "Tarix" bölməsinin "Azərbaycan 1941-2005-ci illərdə" və o cümlədən "Heydər Əliyev Fondu" adlı mətnlərin müəllifi Cəbi Bəhramovdur. O, 2014-cü ildə "Azərbaycan neftinin tarixi: Ən qədim zamanlardan bugünədək" adlı monoqrafiyanı başa çatdırmış və nəşrə təqdim etmişdir. Cəbi müəllim "Xəzər dənizinin Azərbaycan sektorunda neft hasilatı, neftçıxarma sənayesinin yaranması və inkişafı tarixi (XX əsrin II yarısı - XXI əsrin əvvəllərində)" mövzusunda tarix üzrə elmlər doktoru dərəcəsini almaq üçün yazdığı dissertasiya işini başa çatdırmışdır. "Qubadlı. Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı" (B., 2013); "Zəngəzur tarixi" (B., 2012) adlı fundamental əsərlərin ərsəyə gəlməsində C.Bəhramovun da böyük zəhməti olmuş və həmin kitabların həmmüəllifidir.

Cəbi Bəhramovun müəllifi və baş redaktoru olduğu "Azərbaycan Respublikasının sərhəd mühafizə xidmətinin yaranması və inkişafı tarixi", "Nobellər və Bakı nefti", "Azərbaycan nefti" kitabları Azərbaycan və ingilis dillərində 2009-2010-cu illərdə nəşr olunmuşdur. Bütün bu görülən işlərin davamı olaraq alim 2013-cü ildə Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmiş "Heydər Əliyev" adlı ikicildlik monoqrafiyanın və ikicildlik "Heydər Əliyev: Azərbaycan elminin keşiyində" adlı sənədlər toplusunun müəllifi olmuşdur. O, "Azərbaycan Milli Atlası"nın "Tarix" bölməsinin və Azərbaycan tarixinə dair xəritələrin tərtibində və mətnin yazılmasında iştirak etmişdir. Ümumilikdə isə Cəbi müəllim 80-dən çox elmi əsərin müəllifi və həmmüəllifidir. Onun əsərləri türk, ingilis, rus və ispan dillərində, Argentina, Türkiyə, Rusiya Federasiyası, Gürcüstan, Ukrayna və digər xarici ölkələrdə nəşr olunmuşdur.

Öz xalqının problemlərinə dərindən bələd olan, onların həlli üçün imkanları daxilində əzmlə çalışan Cəbi Bəhramov 2007-2019-cu illərdə Avropa və Asiya ölkələrində keçirilən beynəlxalq elmi konfranslarda, sessiya və simpoziumlarda aktual mövzularda çıxışlar etmişdir.

Professor Cəbi Bəhramov təkcə mükəmməl, əhəmiyyətli elm sahibi olmaqla nüfuz qazanmayıb, o, həm də faydalı əməlləri, saf əxlaqı, vətənpərvərliyi və xeyirxahlığı ilə sınaqlardan keçib, hörmət qazanıb. Geniş siyasi biliklərə və zəngin təcrübəyə malik Cəbi müəllim 1990-2018-ci illərdə pedaqoji fəaliyyətlə də məşğul olub. O, Qərb Universitetində Politologiya və beynəlxalq münasibətlər kafedrasının müdiri, professoru olmaqla həmin ali məktəbin bakalavr və magistr bölmələrində "Azərbaycan tarixi və beynəlxalq münasibətlər tarixi" fənlərindən dərs deyir. 2009-cu ildə Qərbi Kaspi Universitetinin Elmi Şurasının qərarı ilə Cəbi Bəhramova fəxri professor elmi adı verilmişdir.

Bir şəxsiyyət, ziyalı və alim olaraq Cəbi Bəhramov AMEA Tarix İnstitutunda doktorantura və dissertantura yolu ilə yüksəkixtisaslı kadrların hazırlanması işinə də öz töhfəsini verir. Onun rəhbərliyi altında 5 nəfər tarix üzrə fəlsəfə doktoru hazırlanmışdır. Onu da qeyd edək ki, hörmətli alim 2003-2018-ci illərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərmiş D.01.161 Dissertasiya Şurasının elmi katibi vəzifəsini yerinə yetirmiş və bu müddət ərzində 400-ə yaxın şəxs tarix üzrə fəlsəfə doktoru və tarix üzrə elmlər doktoru elmi dərəcələri almışdır.

Xeyr-şərdə həmişə fəal iştirak edən, insanların arasında olub, sevincinə sevinib, kədərini öz dərdi bilən, həmsöhbət olmaq, dinləmək bacarığına malik olan Cəbi müəllimi xalqına sevdirən elə məhz budur. Sadə insanlar, inkişaf, tərəqqi, mədəniyyət - bir sözlə, dəyərli nə varsa, qəlbi və düşüncəsi böyük olan Cəbi müəllimin marağındadır. O, yaşadığı məkanın, zamanın və müqəddəs insanların arasında böyük uğurlar əldə etmişdir. Bu, təsadüfi deyil. Doğulduğu, boya-başa çatdığı coğrafi mühit, əhatəsində yaşadığı dünyagörmüş böyükləri və müdrik siyasətçilərlə bir yerdə fəaliyyəti onda bu yüksək hissləri, əqidəni formalaşdırmışdır.

Bütövlükdə Cəbi Bəhramovun ziyalı, alim, tarixçi kimi fəaliyyəti, zəngin araşdırmaları, tədqiqatları, çapdan çıxmış əsərləri gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır. Onun sağlam ziyalı mövqeyi hər yerdə özünü göstərir. Azərbaycan elminin inkişafı naminə səmərəli fəaliyyətində qazandığı hər bir uğuru, elmi-təşkilati bacarığı tükənməz enerjisindən xəbər verir.

Aktual fikirləri, cəsarətli təşəbbüsləri, qətiyyətli və ədalətli mövqeyi ilə tanınan Cəbi Bəhramov xalqına möhkəm bağlı tarixçi alimdir.

***Nazim MƏMMƏDOV,***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, tarix üzrə elmlər doktoru, baş elmi işçi***

# Qazaxda xalq şairi Vaqif Səmədoğlunun 80 illik yubileyi keçirilmişdir

Xalq şairi Vaqif Səmədoğlunun 80 illik yubileyi doğulub boya-başa çatdığı Qazax rayonunda təntənə ilə qeyd edilmişdir.



Tədbir iştirakçıları əvvəlcə Qazax şəhərinin mərkəzində yerləşən "Fəxri qazaxlılar" parkına gələrək xalq şairinin büstünün açılışını etmişlər. Sonra yubiley tədbiri Yuxarı Salahlı kəndindəki Səməd Vurğun Poeziya Evində davam etdirilmişdir. Qonaqlar və rayon ictimaiyyətinin nümayəndələri Səməd Vurğunun Poeziya Evindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar. Sonra söz qonaqlara verilmişdir. Azərbaycan Yazıçılar Birliyinin katibi Xəyal Rza, "Qazax" Xeyriyyə İctimai Birliyinin nümayəndəsi Məti Osmanoğlu, Yuxarı Salahlı kənd orta məktəbinin müəllimləri dahi şair Səməd Vurğunun və Vaqif Səmədoğlunun həyat və yaradıcılığına nəzər salmışlar.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov yubiley tədbirini əsl poeziya bayramı adlandıraraq qonaqları və rayon sakinlərini əlamətdar gün münasibətilə təbrik etmişdir. Bildirmişdir ki, Qazax torpağı yüzlərlə şair və yazıçı yetirmişdir. Bu gün hər bir qazaxlı fəxr edir ki, bu torpaq Azərbaycan ədəbiyyatına Səməd Vurğun, onun övladları olan Vaqif və Yusif kimi istedadlı oğullar bəxş etmişdir.

Bugünün tarixi bir əhəmiyyət daşıdığını vurğulayan rayon icra hakimiyyətinin başçısı ulu öndər Heydər Əliyevin zamanında Vəkilovlar ailəsinə verdiyi dəyərdən, göstərdiyi diqqət və qayğıdan söz açmışdır. Bildirilmişdir ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən ziyalılarımıza, o cümlədən Vəkilovlar ailəsinə qayğı göstərilir. Ölkə rəhbərinin Vaqif Səmədoğlunun 80 illik yubileyinin keçirilməsi barədə imzaladığı sərəncam, eləcə də Heydər Əliyev Fondu tərəfindən Qazaxdakı ziyalılar parkında büstünün qoyulması sübut etdi ki, dövlətimizin, ölkə rəhbərinin bu ailəyə olan sevgi və qayğısı bundan sonra da davamlı olacaqdır.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək Vaqif Səmədoğlu yaradıcılığının zənginliyindən, Azərbaycan ədəbiyyatına bəxş etdiyi dəyərli şeirlərdən, Azərbaycanı sözün qüdrəti ilə ən uca zirvələrə qaldırmasından söz açmışdır.

Səməd Vurğunun Ev-muzeyinin direktoru, Vaqif Səmədoğlunun həyat yoldaşı Nüşabə Vəkilova isə çıxışında ömür-gün yoldaşına dövlət səviyyəsində verilən qiyməti sonsuz minnətdarlıq hissi ilə qarşıladığını bildirmişdir. O, Vaqif Səmədoğlu haqqında ürək sözlərini çatdıraraq xatirələrini danışmışdır.

Yuxarı Salahlı kəndinin ağsaqqalı Abdulla Məmmədov ürək sözlərini söyləyərkən Azərbaycan ədəbiyyatına, ziyalılara verilən yüksək dəyərə görə dövlət başçısı İlham Əliyevə həmyerliləri adından minnətdarlığını bildirmişdir.

Sonra söz Bakıdan dəvət olunmuş aktyorlara verilmişdir. Onlar Vaqif Səmədoğlunun şeirlərindən nümunələr səsləndirmişlər. Məktəblilərin çıxışından sonra aşıqlar xalq şairinin sözlərinə bəstələnmiş mahnılar ifa etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Yazmaq bizdən

# Azərbaycansayağı marketinq

## Yay gəldi, küçə və məhəllələr bazara döndü

Bazar iqtisadiyyatına keçsək də, bazar təfəkküründən keçə bilmirik. Bilsəydik, havalar isinincə çobanlar sürülərini yaylağa qaldırdıqları kimi biz də dükanlardakı yeşik-yeşik malları, özü də ərzaq məhsullarını küçələrin, məhəllələrin ortasına çıxarmazdıq, daha doğrusu, tökməzdik. Guya bununla müştəri tutulur, alver artır, qazanc çoxalır. Nə deyək, görünür, bu da bir azərbaycansayağı marketinqdir.







Bu şəkilləri foto-müxbirimiz Ağəli MƏMMƏDOV paytaxtın yalnız bir ərazisində - Zahid Xəlilov küçəsində çəkmişdir. Təəssüf ki, belə küçə və məhəllələrin sayı Bakıda yüzlərlədir

Yenə yaydır. Yenə Bakının 4-5 mərkəzi küçə və prospektindən 4-5 addım aralanan kimi sanki kolxoz bazarına düşürsən. Hansı küçəyə, hansı məhəlləyə dönürsən, gözə yan-yana düzülən meyvə-tərəvəz yeşikləri, "ucalan" yemiş-qarpız "təpə"ləri dəyir. Özü də təkcə gözə dəymir, həm də ayağa dolaşır, gediş-gəlişi kəsir. Çünki sayı heç də az olmayan bu "ticarət obyektləri"nin hamısı ayaq altında, ən yaxşı halda kiminsə qarajının, əl damı dediyimiz hansısa yöndəmsiz tikilinin qarşısında "fəaliyyət" göstərir. Biz hələ zəbt olunan səkiləri demirik. Bu, ayrı bir bəladır, hətta o qədər ki, adam həmin əraziyə yolunu saldığına peşman olur.

Bunlar problemin, necə deyərlər, texniki-inzibati tərəfidir. Amma onun daha ciddi və daha ağır fəsadlara yol açan digər tərəfləri də var. Söhbət küçədə satılan meyvə-tərəvəz və bostanın insan sağlamlığı üçün təhlükəsindən, həmin ərazidə yaratdığı antisanitariyadan gedir. Bu üzdən ilk növbədə küçədə toz-torpağın basdığı ərazidən gün altında, istidə qalmış meyvə-tərəvəz alanları qınayırıq. İndi nə zəmanədir ki, belə bir şəraitdə alış-veriş edək?! Söhbət qiymətdən gedirsə, o, normal satış yerlərindəkindən ucuz deyil ki, bahadır, üstəlik çəkidə aldadılmaq ehtimalı. Elə isə özümüzün, ailə üzvlərimizin sağlamlıqlarını niyə risk altına atırıq?! Axı uşaq da bilir ki, belə isti havalarda küçədə satılan meyvə-tərəvəzin xarab olmaması mümkün deyil. Bəlkə də bu, ilk baxışdan görünmür, hiss edilmir. Amma kim deyə bilər ki, saatlarla, bəzən də günlərlə 30-35 dərəcə istidə qalan meyvə-tərəvəz ən azından keyfiyyətini itirmir?! Üstəlik antisanitariya. Tək avtomobillərdən çıxan zəhərli qazlar kifayətdir ki, küçə şəraitində satılan məhsulların nə dərəcədə ziyanlı olduğu dərk edilsin. Uçan-qaçan həşəratlar, ətrafdakı üfunət qoxulu zir-zibil də bir üzqarası kimi öz yerində.

Zir-zibil demişkən. Bu cür ticarət şəhərimizin onsuz da təmiz olmayan ətraf küçə və məhəllələrinin daha da zibillənməsinə "rəvac" verir. Xarab olduğundan atılan meyvə-tərəvəz "nümunə"ləri və istifadə olunmuş polietilen torbalar günəbaxan tumunun qalıqları, siqaret kötükləri və ümumiyyətlə, zibil olaraq ağlınıza nə gəlirsə onunla qarışanda ərazidə görməyi heç kimə arzulamadığımız bir ayrı mənzərə yaranır. Amma nə edəsən ki, arzulamasaq da, bu cür mənzərəni nəinki görməyə, hətta onun ətrafında yaşamağa, üfunətini içimizə çəkməyə məhkumuq. Sağ-solumuz bu küçə ticarətinin fəsadları əhatəsində deyilmi?!

Amma olmaya bilərdi... Əgər bu işi qaydasına salan demirik, qarşısını almalı olan müxtəlif təyinatlı qurumlar öz vəzifə borclarına məsuliyyətlə yanaşsaydılar. Çünki bütün hallarda müasir dövrün Bakı kimi müasir şəhərində küçə ticarətinin heç yeri yoxdur, xüsusən də bu yöntəmdə.

Başa düşürük, ola bilsin, kimsə aylarla gözləyib ki, yay gəlsin, həyətə bir-iki taxta düzüb, yaxud gediş-gəlişin sıx olduğu küçədə bir-iki yeşik qoyub ailəsinə çörəkpulu qazansın. Sözümüz belələrinədir: çörəkpulu qazanmağın yolu yalnız bu deyil, hətta olsa belə, yeri təkcə küçə və məhəllələr deyil. Bunun üçün paytaxtda müasir ticarət obyektləri, pis-yaxşı şəraiti olan bazarlar var. Olmazmı onlardan bir yer icarəyə götürüb normal alver edəsiniz?! Özü də təkcə yayda yox, bütün il boyu, başınıza nə gün döysün, nə də malınızı isti zay etsin. İcarə haqqını bəhanə etməyin. Hamı bilir ki, küçə alveri də heç kimə haqsız başa gəlmir. Haqq haqdırsa, onu normal şəraiti olan yer üçün vermək daha sərfəlidir, nəinki açıq havada bir-iki qarış quru torpaq üçün.

Söz ki haqdan düşdü, Bakının küçə və məhəllələrinin kolxoz bazarına çevrilməsinə göz yumub rəvac verənlərdən yan keçə bilmərik. Bilmərik ona görə ki, onlar onlar olsaydılar, paytaxtımız (yəqin ki, həm də digər iri şəhərlərimiz) yay aylarında bu günə düşməzdi. Bizim gözümüz öyrəşib və o üzdən problemin ciddiliyinə varmırıq. Amma xüsusən yay aylarında daha çox qonaq-qaralı olan Bakıya gələn xarici turistlərin belə mənzərəni görəndə nə fikirləşdiklərinin fərqinə varmalıyıq axı...

İnanmırıq ki, belə halların qarşısını almalı olan çoxsaylı mərkəzi nəzarət və yerli icra qurumlarının gözyumuqluğu, hərəkətsizliyi humanistlikdən, dövlətin sahibkarlığın inkişafı siyasətinə dəstək vermək və ya yeni iş yeri açmaq istəklərindən irəli gəlir, əks halda haqdan yox, ədalətdən, fəaliyyətdən danışardıq.

Nə isə, babalı yumaq istəmirik. Tək istəyimiz varsa, o da şəhərimizin gözəlliyinə ziyan vuran, abadlığına ləkə olan bu vəziyyətə son qoyulmasıdır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Aİ-nin Rusiyaya qarşı sanksiyaları qüvvəyə mindi

Avropa İttifaqının (Aİ) rəsmi jurnalında Moskvaya qarşı sanksiyaların müddətinin uzadılması barədə qərar dərc olunmuşdur. Rusiya Federasiyasının energetika, maliyyə və müdafiə sahələrinə şamil edilən məhdudiyyətlər hələ azı yarım il - 2020-ci il yanvarın 31-dək qüvvədə olacaq.

Aİ-nin qərarı Rusiyanın Ukrayna ilə bağlı siyasəti, xüsusilə Minsk sazişlərinə riayət etməməsi ilə əlaqəlidir.

Bundan əvvəl Almaniya Kansleri Angela Merkel və Fransa Prezidenti Emmanuel Makron avropalı siyasətçilərə sanksiyaların müddətini uzatmağı təklif etmişdilər.

## ABŞ Konqresi cənub sərhədində problemlərin həllinə 4,6 milyard dollar ayırdı

ABŞ-ın cənub sərhədində problemlərin həlli üçün 4,6 milyard məbləğində vəsaitin ayrılmasını nəzərdə tutan qanun layihəsi Senatın hazırladığı versiyada Konqresin hər iki palatası tərəfindən qəbul edilmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Qanun layihəsini 305 konqresmen dəstəkləmiş, əleyhinə 102 səs verilmişdir. Bu barədə Twitterdə məlumat verən ABŞ Prezidenti Donald Tramp layihə üzərində işləyənlərə, habelə qeyri-leqal miqrasiya problemlərinin həllində köməyə görə Meksikaya təşəkkür etmişdir.

Qanun layihəsinin qüvvəyə minməsi üçün Tramp sənədi imzalamalıdır.

## Türkiyə ordusu Əsədin qüvvələrini vurdu

Türkiyənin Milli Müdafiə Nazirliyi Bəşşar Əsəd ordusunun mövqelərinə "effektiv zərbə" endirildiyini bildirmişdir. Həmin mövqelərdən İdlib gərginliyi azaltma zonasında Türkiyə Silahlı Qüvvələrinin müşahidə məntəqələrindən biri atəşə tutulurdu. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Srağagün İdlib əyalətinin cənubunda yerləşən Zaviyə rayonunda müşahidə məntəqəsinin minaatan və toplardan atəşə tutulması nəticəsində bir türkiyəli hərbi qulluqçu şəhid olmuş, 3 nəfər yaralanmışdır. Buna cavab olaraq Türkiyə artilleriyası və zirehli texnikası Əsəd tərəfdarlarının mövqelərinə güclü zərbə endirmişdir. Hadisə ilə əlaqədar Türkiyə Silahlı Qüvvələri Baş Qərargahına dəvət olunmuş Rusiyanın Ankaradakı hərbi attaşesinin diqqətinə çatdırılmışdır ki, Türkiyə İdlibdə müşahidəçilərin atəşə tutulmasına sərt cavab verəcək.

## Konqoda şaxtada 36 qeyri-leqal fəhlə həlak oldu

Konqo Demokratik Respublikasının cənub-şərqində şaxtada baş vermiş uçqun nəticəsində 36 qeyri-leqal fəhlə həlak olmuşdur. Yerli mənbələrin verdiyi məlumata görə, uçqun son həftələr qanunsuz olaraq faydalı qazıntılar hasilatının artdığı regionda baş vermişdir. Mədəni idarə edən İsveçrənin "Kamoto Copper" şirkətinin bəyanatında deyilir ki, hər gün rəsmi icazəsi olmayan minlərlə adam Kolvezi rayonundakı şaxtalarda işləyir. Şirkət şaxtaçıların qanunsuz hərəkətlərinin qarşısını almaq məqsədilə yerli təhlükəsizlik orqanları ilə daim əlaqə saxlayır. "Kamoto Copper" fəhlələrin ölümü ilə əlaqədar başsağlığı vermişdir.

# Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Dərbənd filialına bakalavr təhsili üzrə sənəd qəbulu başladı

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Dərbənd filialına 2019/2020-ci tədris ili üçün bakalavr təhsili üzrə abituriyent qəbulu elan edir. Qəbul Dünya iqtisadiyyatı; Maliyyə və kredit; Mühasibat uçotu, təhlil və audit; Ümumi iqtisadiyyat ixtisasları üzrə əyani və qiyabi təhsil forması üzrə aparılır.

Təhsil üzrə plan yerlərinə qəbul büdcə hesabına və müqavilə ilə ödənişli əsaslarla həyata keçirilir. Təhsil müddəti əyani forma üzrə 4 il, qiyabi forma üzrə 5 ildir.

Rusiya Federasiyasının vətəndaşları Rusiya Federasiyasının mövcud qaydalarına uyğun olaraq Vahid Dövlət İmtahanı (ЕГЭ) əsasında qəbul edilir.

Azərbaycan Respublikasının vətəndaşları üçün riyaziyyat (test üsulu ilə), Azərbaycan və ya rus dili (imla), coğrafiya (test üsulu ilə) fənləri üzrə qəbul sınaq imtahanları keçirilir.

Sənədlər aşağıdakı tarixlərdə qəbul edilir:

**Əyani tədris forması üzrə büdcə hesabına plan yerlərinə:**

- Vahid Dövlət İmtahanı (ЕГЭ) nəticələrinə əsasən 20 iyun - 26 iyul 2019-cu il tarixlərdə;
- Filial tərəfindən təşkil edilən sınaq imtahanlarının nəticələrinə əsasən, 20 iyun - 20 iyul 2019-cu il tarixlərdə.

**Əyani tədris forması üzrə ödənişli plan yerlərinə:**

- Vahid Dövlət İmtahanı (ЕГЭ) nəticələrinə əsasən 20 iyun - 26 avqust 2019-cu il tarixlərdə;
- Filial tərəfindən təşkil edilən sınaq imtahanlarının nəticələrinə əsasən, 20 iyun -20 avqust 2019-cu il tarixlərdə.

Qiyabi tədris forması üzrə ödənişli plan yerlərinə sənəd qəbulu Vahid Dövlət İmtahanı (ЕГЭ) və filial tərəfindən təşkil edilən sınaq imtahanlarının nəticələrinə əsasən 20 iyun - 26 oktyabr 2019-cu il tarixlərdə aparılacaq.

**Müsabiqədə iştirak etmək üçün Dərbənd filialında yerləşən müvafiq komissiyaya aşağıdakı sənədlər təqdim edilməlidir:**

- Qəbul üçün xüsusi ərizə;
- Şəxsiyyət və vətəndaşlığı təsdiq edən sənədin rus dilinə tərcümə edilmiş notarial təsdiqli surəti;
- Təhsil haqqında sənədin əsli və rus dilinə tərcümə edilmiş notarial təsdiqli surəti;
- Foto (3x4 ölçüdə, 5 ədəd)
- Qeydləri rus dilində aparılmış tibbi arayış (Forma 086-U)

Qəbul komissiyası həftənin 5 günü saat 09:00-dan 18:00-dək, şənbə günü 09:00-dan 16:00-dək fəaliyyət göstərir. Qəbul barədə ətraflı məlumatı rəsmi www.ageu-derbent.ru saytından, +79289377258; +79675820173; +78724045285 telefon nömrələrindən və dfazeu@yandex.ru email ünvanından əldə etmək mümkündür.

**Ünvan:** Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri, Heydər Əliyev küçəsi (keçmiş Sovetski küç.), ev 10B (auditoriya 101).

***Rektorluq***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 16 fevral, 01mart, 03 aprel, 23 aprel və 08 may 2019-cu il tarixli nömrələrində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, LOT-2 Ehtiyat hissələrinin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 15 iyul 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 16 iyul 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +99412 431-47-67 (2249).

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 04.06.2019-cu il tarixdə keçirilmiş 2 ədəd maarifləndirici sosial çarxın çəkilməsi və pk.fimsa.az elektron portalının video təlimatının hazırlanması xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “Premark Media” MMC 8.150,00 (səkkiz min yüz əlli) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş iştirakçı ilə 28 iyun 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər iştirakçılara təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## BİLDİRİŞ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi daşınma xidmətlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar 465-73-48 (daxili 141) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 03 iyul 2019-cu il saat 17:00 tarixədək qəbul olunur. Əlavə məlumat üçün bu ünvana müraciət etmək olar:

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi, Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18, əlaqələndirici şəxs: Samir Məmmədov.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının maliyyə hesabatlarının auditinin keçirilməsi məqsədilə elan edilmiş açıq tenderin qalibi “KPMG Audit Azərbaycan” MMC ilə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

II Avropa Oyunları

MINSK 2019

# Bir gündə 4 medal

## Qadın güləşçilərimiz uğur estafetini davam etdiriblər









*Əvvəli 1-ci səh.*

İyunun 27-də 62 kq çəki dərəcəsində yarışan Elmira Qəmbərova 1/8 finalda almaniyalı Luzi Mankeni, 1/4 finalda polşalı Katarzina Madrovskanı, yarımfinalda rumıniyalı Krişta İnçzeni mübarizədən kənarlaşdıraraq finala yüksəlmişdi. Dünən isə çempionluq uğrunda ukraynalı Yuliya Tkaçla qarşılaşdı. Həlledici qarşılaşma təmsilçimiz üçün uğursuz oldu. Görüşü 0:4 hesabı ilə uduzan Elmira II Avropa Oyunlarını gümüş medalla başa vurdu.

### Əzmkarlıqla qazanılan bürünc mükafat

57 kq çəkidəki təmsilçimiz Alyona Kolesnik oyunlara 1/8 finaldan başlayıb. Macarıstanlı Ramona Qalambos ilə üzüzə gələn idmançımız 10:0 hesabı ilə qalib gəlsə də, 1/4 finalda bolqarıstanlı Mimi Xristova ilə bacarmadı (0:6). Amma rəqibi finala yüksəldiyi üçün Alyona üçün bürünc medal şansı yarandı. İlk olaraq təsəlliverici görüşdə italiyalı Franseska İndelikatoyla güləşən idmançımız 12:1 hesabı ilə qalib gələrək bürünc medal uğrunda dünən türkiyəli Bediha Günlə qarşılaşdı. İlk hissədə xal qazanan türkiyəli idmançı önə keçsə də, güləşçimiz əzmkarlıqla 5:3 hesablı qələbə qazanaraq bürünc medala yiyələndi.

76 kq çəki dərəcəsində güləşən Səbirə Əliyeva isə 1/8 finalda Aykaterinierini Pitsiava (Yunanıstan) ilə qarşılaşdı və 9:0 hesabı ilə qələbə qazanaraq 1/4 finala yüksəldi. Bu mərhələdə Georgina Neltorpa (Böyük Britaniya) 8:2 hesabı ilə qalib gələn Səbirə yarımfinalda almaniyalı Frensi Rideltlə qarşılaşmadan məğlub ayrıldı. Bürünc medal uğrunda görüşdə norveçli İselin Solheymlə qarşılaşan güləşçimiz uduzaraq II Avropa Oyunlarını medalsız başa vurdu.

İyunun 28-də yunan-Roma güləşçilərinin mübarizəsinə də start verilib. Ölkəmizi iki çəki dərəcəsində güləşçilər təmsil ediblər. Hər iki təmsilçimiz yarışa 1/8 finaldan start verib. Təəssüf ki, hər iki güləşçimiz ilk görüşdəcə uduzub.

60 kq çəki dərəcəsində yarışan Sakit Quliyev xorvatiyalı İvan Lizatoviçə 0:4 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

67 kq çəkidə mübarizə aparan Kərim Cəfərov da Norveç təmsilçisi Haavard Yorgensenlə bacarmayıb - 1:4. Norveçli güləşçi növbəti mərhələdə uduzduğundan, Kərim üçün də mübarizə erkən bitib.

### Boksçumuz finalda

Dünən “Minsk-2019”da boks yarışlarında yarımfinal görüşləri keçirilib.

Azərbaycanı 69 kq çəki dərəcəsində təmsil edən Lorenzo Sotomayor finala çıxmaq üçün böyük britaniyalı Pet Makkormakla qarşılaşıb. Lakin döyüşü uduzan təmsilçimiz bürünc medalla kifayətlənib.

81 kq çəki dərəcəsində yarışan digər yarımfinalçımız Alfonso Dominqez həlledici mərhələyə yüksəlmək üçün italiyalı Fiori Domingezlə üz-üzə gəlib. Görüşü qalib başa vuran idmançımız bu gün finalda böyük britaniyalı Benjamin Vittakerlə qarşılaşacaq.

Beləliklə, 8-ci yarış günündən sonra Azərbaycan 20 medalla (3 qızıl, 6 gümüş, 11 bürünc) 10-cu pillədə qərarlaşıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# *Baş Prokurorluq və DİN:* “İctimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısı qanunvericiliyə uyğun qaydada alınacaq”

İyunun 28-də AXCP sədri Əli Kərimli Binəqədi rayonu ərazisində yerləşən “Müsavat” Partiyasının qərargahının qarşısından qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə yaydığı çağırışla əlaqədar Binəqədi Rayon Polis İdarəsinə dəvət edilib.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış ərazilərdə mitinq və qanunla müəyyən edilmiş qaydada təşkil edilməyən toplantının keçirilməsinə cəhdin “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olduğu onun nəzərinə çatdırılıb. İctimai asayişin pozulmasına yönələn belə qanunsuz hərəkətlərin qarşısının bundan sonra da qanunvericiliklə müəyyən edilmiş qaydada alınmaqla təşkilatçıların məsuliyyətə cəlb olunacaqları barədə “Prokurorluq haqqında” qanunun tələblərinə uyğun olaraq Ə.Kərimliyə rəsmi xəbərdarlıq edildikdən sonra o, sərbəst buraxılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, görkəmli alim və mətbuat tədqiqatçısı, professor

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

1 N-li Uşaq Stomatoloji Poliklinikasının baş həkimi Rafael Soltanov və poliklinikanın kollektivi Səhiyyə Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri Azad Vəliyevə atası

**NƏRİMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rüstəm Kamala əzizi

**FÜZULİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova, Rəyasət Heyətinin üzvləri və aparat işçiləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Bakı Dövlət Universitetinin professoru

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası

**ŞİRMƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Siyəzəndən Novruz Novruzov Milli Məclisin deputatı İqbal Məmmədova atası

**NƏRİMAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarova əzizi

**SİYARANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəis müavini Məhərrəm Qafarov Səhiyyə Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri Azad Vəliyev və qardaşı Ramiz Vəliyevə ataları

**NƏRİMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 2096
Qiyməti 40 qəpik